Şübhəsiz ki, iman gətirənlərdən, yəhudilərdən, sabiilərdən və xaçpərəstlərdən Allaha və axirət gününə inanıb yaxşı iş görənlərin heç bir qorxusu yoxdur və onlar qəm-qüssə də görməzlər!

*(Qurani-Kərim, əl-Maidə, 69)*

## Referendumun nəticələri açıqlanıb

Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov ölkəmizdə referendumun keçirildiyi bütün məntəqələrdən daxil olan məlumatlarla bağlı sentyabrın 27-də mətbuat konfransı keçirib.

O bildirib ki, referendum 125 seçki dairəsi üzrə 5627 seçki məntəqəsində keçirilib və nəticələrin hamısı bu gün səhər Mərkəzi Seçki Komissiyasına daxil olub. Diqqətə çatdırılıb ki, ölkə üzrə qeydə alınmış seçicilərin sayı 5 milyon 276 min 111 nəfər olub. Səsvermədə seçicilərin iştirak faizi 69,7 faiz təşkil edib. səh. 4

www.scwra.gov.az

*Dinimiz milli-mənəvi sərvətimizdir.*

# Cəmiyyət və Din

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 09 (302) / SENTYABR 2016-cı il

# Bakıda V Beynəlxalq Humanitar Forum işə başlayıb

## *Azərbaycan Prezidenti İlham Əliyev Forumun rəsmi açılış mərasimində iştirak edib*

**Sentyabrın 29-da Heydər Əliyev Mərkəzində V Bakı Beynəlxalq Humanitar Forumu işə başlayıb.**

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Forumun rəsmi açılış mərasimində iştirak ediblər.**




Bakı beşinci dəfə Beynəlxalq Humanitar Foruma ev sahibliyi edir. Bu Forum bəşəriyyətdə maraq doğuran qlobal xarakterli məsələlərə dair geniş spektrli dialoqlar, fikir mübadilələri və müzakirələr aparmaq məqsədilə hər il tanınmış dövlət xadimləri, elmin müxtəlif sahələri üzrə Nobel mükafatı laureatlarını və nüfuzlu beynəlxalq təşkilatların rəhbərlərini, o cümlədən dünyanın siyasi, elmi və mədəni elitasının görkəmli nümayəndələrini bir araya toplayan mötəbər tədbirdir. Humanitar Forumun gündəliyi bu dəfə də aktual məsələlərdən ibarətdir. Budəfəki Forumun mövzuları da son dərəcə maraqlıdır. "Multikulturalizmin müxtəlif modelləri: nəzəriyyədən humanist təcrübəyə doğru", "İnsanların kütləvi yerdəyişməsi şəraitində insan kapitalının qorunmasının önəmi davamlı inkişafın əsası kimi", "Jurnalistikanın informasiya dövrünə transformasiyası və onun sivilizasiyalararası dialoqun təmin edilməsində rolu", "Davamlı inkişaf və ekoloji sivilizasiya", "Molekulyar biologiya, biofizika, biotexnologiya və müasir tibb sahəsində kadr hazırlığı məsələləri: innovativ və etik problemlər" Forumun müzakirə mövzuları olacaq. Bundan əlavə, "Texnologiyaların konvergensiyası və gələcəyə dair proqnozlar: XXI əsrin əsas çağırışları" mövzusu da ekspertlər tərəfindən müzakirəyə cəlb ediləcək.

Dövlətimizin başçısı Forumun açılışında nitq söyləyib:

**- Hörmətli xanımlar və cənablar.**

**Hörmətli qonaqlar.**

Bakı Beynəlxalq Humanitar Forumu öz işinə başlayır. Bu Forumda iştirak etmək üçün ölkəmizə gəlmiş bütün qonaqları səmimiyyətlə salamlayıram, Azərbaycana "xoş gəlmisiniz" deyirəm.

Builki Forumda 80-ə yaxın ölkədən 400-dən çox nümayəndə iştirak edir. Bu, özlüyündə bir göstəricidir. Forum son illər ərzində beynəlxalq aləmdə böyük hörmət qazanıb. Bu Forumun beynəlxalq mötəbər tədbirlər arasında xüsusi yeri var. Azərbaycan beynəlxalq humanitar əməkdaşlığa həmişə çox böyük diqqət verib. Biz hesab edirik ki, dünyada müsbət meyillər güclənməlidir. Beynəlxalq əməkdaşlıq ölkələrarası əlaqələrin inkişafı üçün xüsusi rol oynayır. Son illər ərzində biz bu məqsədlə ölkəmizdə bir çox beynəlxalq tədbirlər keçirmişik. Onların arasında əlbəttə ki, Bakı Beynəlxalq Humanitar Forumu xüsusi yer tutur. İki ildən bir ölkəmizdə Mədəniyyətlərarası Dialoq Forumu keçirilir. Bir neçə il bundan əvvəl Bakıda Dünya dinləri liderlərinin Zirvə görüşü keçirilmişdir. Bu il isə BMT-nin Sivilizasiyalararası Alyansının VII Qlobal Forumu keçirilmişdir. Bütün bu mötəbər tədbirlər çərçivəsində beynəlxalq humanitar əməkdaşlığa, multikulturalizmə və digər önəmli məsələlərə dair geniş diskussiyalar, müzakirələr aparılmışdır.

Eyni zamanda, Azərbaycan son illər ərzində mötəbər idman yarışlarına da ev sahibliyi edib. Təkcə bu il Bakıda ilk dəfə olaraq "Formula-1" yarışı və Ümumdünya Şahmat Olimpiadası keçirilmişdir. Keçən il isə tarixdə ilk dəfə olaraq Bakıda birinci Avropa Oyunları keçirilmişdir. Bu, özlüyündə bir göstəricidir. Çünki ilk Avropa Oyunları müsəlman ölkəsində keçirilmişdir və bu, Azərbaycanın dinlərarası, mədəniyyətlərarası dialoqun gücləndirilməsinə töhfəsi kimi qiymətləndirilə bilər. Gələn il isə Bakıda IV İslam Həmrəylik Oyunları keçiriləcəkdir. Yəni, bir şəhərdə cəmi iki il ərzində həm Avropa Oyunları keçirilib, həm də İslam Oyunları keçiriləcəkdir. Bugünkü Azərbaycan, bax, bu yolla gedir.

Bu beynəlxalq tədbirləri ölkəmizdə keçirməyimizdə bir çox məqsədlər var. İlk növbədə, bu, bizim ölkəmizə lazımdır. Çünki Azərbaycan çoxkonfessiyalı, çoxmillətli ölkədir. Azərbaycanda bütün dinlərin, xalqların nümayəndələri bir ailə kimi yaşayır. Eyni zamanda, bu beynəlxalq, siyasi və humanitar tədbirlər dünyaya da bir siqnal göndərir ki, dünyanın mütərəqqi nümayəndələri səylərini daha da sıx birləşdirməlidirlər. Çünki bu gün əfsuslar olsun ki, dünyada xoşagəlməz meyillər üstünlük təşkil edir. Qanlı toqquşmalar, müxtəlif bölgələrdə müharibələr gedir, dini, milli zəmində qan tökülür. Beynəlxalq humanitar əməkdaşlığın dərinləşməsi müəyyən dərəcədə bu mənfi meyillərin qarşısını ala və müsbət meyilləri gücləndirə bilər.

Azərbaycan Avropa Şurasının və İslam Əməkdaşlıq Təşkilatının üzvüdür, hər iki təşkilatda fəal rol oynayır. Hər iki təşkilat Azərbaycanın təşəbbüsü ilə bizim üçün ən ağrılı problem olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı çox ədalətli və beynəlxalq hüquqa əsaslanan qətnamələr qəbul edib və bu qətnamələrdə Ermənistan işğalçı dövlət kimi göstərilib. Biz bu iki təşkilatda fəaliyyətimizi uğurla davam etdiririk. Bu iki təşkilatda dünyanın 100-dən çox ölkəsi birləşir. Biz bir neçə il bundan əvvəl fikirləşdik ki, yaxşı olar, Avropa Şurası və İslam Əməkdaşlıq Təşkilatı arasında bir əlaqə yaradılsın. Bu məqsədlə 2008-ci ildə Avropa Şurasına üzv ölkələrin mədəniyyət nazirlərinin Bakıda keçirilmiş toplantısına biz İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin mədəniyyət nazirlərini dəvət etmişdik və birgə sessiya keçirilmişdir. Bu, dünyada çox böyük əks-səda yaratmışdır. Bizim bu sahədəki fəaliyyətimiz yüksək qiymətə layiq görüldü və bu görüşə, bu təşəbbüsə "Bakı prosesi" adı verilmişdir. 2009-cu ildə isə biz İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin mədəniyyət nazirlərini qəbul etdik və bu görüşə Avropadan mədəniyyət nazirlərini də dəvət etdik. Beləliklə, bizim təşəbbüsümüzlə çox önəmli yeni bir proses başlamışdır. Biz əlbəttə, çox fəxr edirik ki, bu təşəbbüsə "Bakı prosesi" adı verilmişdir.

Biz çalışırıq və çalışacağıq ki, bundan sonra da humanitar sahədə dinlərarası, mədəniyyətlərarası dialoqun güclənməsinə öz töhfəmizi verək. Çünki bizim siyasətimiz bundan ibarətdir, eyni zamanda, bizim tariximiz multikulturalizm əsasında qurulubdur. Düzdür, multikulturalizm bir anlayış olaraq yeni bir ifadədir, ancaq bu həmişə Azərbaycanda olub. İctimai-siyasi quruluşdan asılı olmayaraq Azərbaycan bütün dövrlərdə sülh, əməkdaşlıq, qarşılıqlı anlaşma məkanı olmuşdur və biz bu ənənələri yaşadırıq. Bu gün biz müstəqil dövlət kimi belə tədbirlərin keçirilməsi ilə multikulturalizmin inkişafına öz töhfəmizi veririk və Azərbaycanda aparılan siyasət bu müsbət meyilləri gündəlik həyatda gücləndirir.

Bir daha qeyd etmək istəyirəm ki, Azərbaycanda bütün xalqların, dinlərin nümayəndələri bir ailə kimi sülh, mehribanlıq şəraitində yaşayır, heç vaxt ölkəmizdə dini-milli zəmində heç bir qarşıdurma, yaxud da anlaşılmazlıq olmamışdır. Bu, bizim böyük sərvətimizdir. Bütün dinlərin tarixi dini abidələri dövlət tərəfindən qorunur, eyni zamanda, dövlət öz vəsaiti hesabına bu abidələrin bərpasını təmin edir. Azərbaycanda məscidlər, kilsələr, sinaqoqlar tikilir, təmir edilir. Biz bütün dini bayramlarımızı birlikdə qeyd edirik. Bütün dini icmalar bunu birlikdə qeyd edir. Biz tariximizlə, mədəniyyətimizlə fəxr edirik. Bu gün dünyanın ən qədim məscidlərindən biri Azərbaycanda, Şamaxı şəhərində yerləşir. Şamaxı məscidi 743-cü ildə tikilmişdir və bərpa edilərək bu gün fəaliyyət göstərir. Eyni zamanda, Şəki şəhərinin yaxınlığında Qafqazın ən qədim kilsələrindən biri – Qafqaz Albaniyası kilsəsi bir tarixi abidə kimi yaşayır.

səh. 2

# Bakıda V Beynəlxalq Humanitar Forum işə başlayıb

## Azərbaycan Prezidenti İlham Əliyev Forumun rəsmi açılış mərasimində iştirak edib



*(əvvəli 1-ci səhifədə)*

O tarixi abidə də bərpa edilərək bu gün xidmət göstərir və çoxlu turistləri cəlb edir. Bakının yaxınlığında qədim zərdüştlük, atəşpərəstlik məbədi bu gün qorunub saxlanılır. Bu, bizim tariximizdir. Müxtəlif dinlərin, mədəniyyətlərin nümayəndələri tarix boyu Azərbaycanda yaşamışlar və yəqin, təsadüfi deyil ki, məhz Azərbaycanı birgəyaşayış üçün seçmişlər. Çünki bizim ölkəmizdə, bizim diyarda bu meyillər həmişə üstünlük təşkil edib. Bu gün də bu, dövlət siyasətidir və biz bu siyasəti bundan sonra da aparacağıq.

Bu dövlət siyasəti ölkə daxilində böyük rəğbət qazanır. Eyni zamanda, bu, cəmiyyətin də əhval-ruhiyyəsidir. Çünki dövlət siyasəti o zaman uğurlu icra edilə bilər ki, cəmiyyət də buna müsbət cavab verir. Cəmiyyətdə mövcud olan xoş əhval-ruhiyyə, multikulturalizmlə bağlı meyillər bizim dövlət siyasətimizi daha da gücləndirir. Təsadüfi deyil ki, Azərbaycanda bu il "Multikulturalizm ili" elan edilmişdir. Bakıda Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılmışdır. Dövlət Bayrağı Meydanının, - bu bayraq dövlətçiliyimizin rəmzidir, - yaxınlığında multikulturalizmə abidə ucaldılmışdır.

Biz hesab edirik ki, bu məsələ daim diqqət mərkəzində olmalıdır. Beynəlxalq təşkilatlar, ayrı-ayrı ölkələr bu məsələ ilə bağlı öz mövqeyini bildirməlidirlər. Çünki bu gün əfsuslar olsun ki, dünyanın müxtəlif yerlərində multikulturalizmlə bağlı fərqli, bədbin fikirlər səslənir. Bəziləri hesab edir ki, multikulturalizm iflasa uğrayıb, bəziləri, ümumiyyətlə, hesab edir ki, belə bir meyilə yol verməmək olmaz, bu, zərərlidir. Bu, çox təhlükəli fikirlərdir, yanaşmalardır. Çünki, gəlin baxaq, multikulturalizmə alternativ nədir, varmı bu alternativ? Əlbəttə ki, var, amma necə alternativdir? Mən hesab edirəm ki, multikulturalizmin alternativi ksenofobiyadır, ayrı-seçkilikdir, irqçilikdir, islamofobiyadır, antisemitizmdir. Bunlar çox təhlükəli meyillərdir. Biz tarixdə bir necə dəfə görmüşük ki, bu meyillərin güclənməsi hansı böyük fəlakətlərə yol açır. Ona görə, bütün mütərəqqi bəşəriyyət multikulturalizm ideyaları, idealları ətrafında birləşməlidir. Burada birmənalı mövqe nümayiş etdirilməlidir. Biz öz növbəmizdə, öz fəaliyyətimizlə, səylərimizlə ölkəmizdə mövcud olan ab-havanı dünyaya təqdim edərək göstəririk ki, bu, mümkündür. Multikulturalizmin dünyada bir çox ünvanları var, onlardan biri Azərbaycandır. Biz bundan sonra da çalışacağıq ki, həm beynəlxalq aləmdə, həm ölkə daxilində, regionda bu müsbət meyilləri gücləndirək.

Əfsuslar olsun ki, dünyada təhlükələr artır. Biz birinci Bakı Beynəlxalq Humanitar Forumunu təşkil edəndə bu gün mövcud olan təhlükələr yox idi. Son bir neçə il ərzində dünyada - həm bizim bölgədə, Yaxın Şərqdə, Avropada, digər yerlərdə çox təhlükəli, narahatedici hadisələr baş verib və baş verir. Qanlı toqquşmalar, müharibələr, bəzi ölkələr tamamilə dağıdılıb, yüz minlərlə günahsız insan həlak olub, milyonlarla, on milyonlarla insan qaçqın-köçkün vəziyyətinə düşüb. Bu, öz növbəsində bundan əziyyət çəkən ölkələrdə radikalizm meyillərini gücləndirir. Həmçinin bu ölkələr dağılandan sonra, - mən Yaxın Şərqi nəzərdə tuturam, - insanlar öz canlarını qurtarmaq üçün Avropaya üz tutmağa başlamışlar. Onların Avropaya gəlişi də bəzi ölkələrdə çox böyük gərginlik yaratmışdır və miqrantlara qarşı çox alçaldıcı hərəkətlərə yol verilmişdir, eyni zamanda, antimiqrant meyillər güclənmişdir. Bu, Avropada radikal qüvvələrin xeyrinə işləyir. Bəzi Avropa ölkələrində son seçkilərə nəzər salsaq görərik ki, radikal qüvvələr daha böyük dəstək alır. Nəyə görə? Çünki onlar bu vəziyyətdən istifadə edərək daha böyük siyasi çəkiyə malik olurlar. Bu da Avropada radikallaşmaya yol açır. Bu, çox təhlükəli meyildir.

Biz indi sivilizasiyalararası dialoqdan danışırıq, ancaq reallıqda sivilizasiyalararası toqquşmanın ilk təzahürlərini görürük. Əgər bu meyillərin qarşısı alınmasa çox böyük fəlakətə gətirib çıxaracaq. Bütün ölkələr ağır vəziyyətə düşə bilər. Ona görə, indiki zamanda daha çox bu məsələlər gündəlikdə olmalıdır, müsbət meyillər üstünlük təşkil etməlidir. Bizi narahat edən məsələlər haqqında açıq danışmalıyıq. Bakı Forumunun məqsədi bundan ibarətdir. Misal üçün, islamofobiya bütün İslam aləmini narahat edir, incidir. Çünki həm bəzi kütləvi informasiya vasitələri, həm də bəzi qeyri-hökumət təşkilatları, bəzi siyasətçilər qəsdən İslam haqqında, dinimiz haqqında mənfi rəy formalaşdırırlar. İslamı terrorla eyniləşdirirlər. Halbuki terrordan ən çox əziyyət çəkən elə müsəlman ölkələridir. Bəzi Avropa ölkələrinin rəhbərləri "stop İslam" deyirlər. Bəziləri deyir ki, biz miqrantları qəbul etməyə hazırıq, ancaq müsəlman miqrantları yox. Bu, nədir? Bu XXI əsrdə Avropada yenidənmi faşizmin baş qaldırmasıdır? Əfsuslar olsun ki, buna nə beynəlxalq təşkilatlar, nə ayrı-ayrı ölkələr reaksiya verir, sanki bu, belə də olmalıdır. Çox təhlükəli meyillərdir və biz mütləq bu barədə danışmalıyıq. Müsəlman aləmində gedən radikallaşma, radikal qüvvələrin daha da böyük dəstək qazanması da narahatedici amillərdir. Ona görə, hesab edirəm ki, biz bu məsələləri açıq şəkildə müzakirə etməliyik.

Bakı Beynəlxalq Humanitar Forumunda tanınmış dövlət xadimləri, ictimai xadimlər, tanınmış alimlər, - onların arasında 13 Nobel mükafatı laureatı var, - jurnalistlər, qeyri-hökumət təşkilatlarının nümayəndələri, digər dəyərli qonaqlar iştirak edirlər. Ona görə, bu, açıq diskussiyalar, tövsiyələr, hərəkət üçün çox gözəl bir formatdır.

Qeyd etdiyim kimi, Azərbaycan humanitar əməkdaşlığa həmişə böyük diqqət yetirib. Ancaq onu da istəyirəm qonaqlar bilsinlər ki, bizim ölkəmiz və xalqımız özü böyük humanitar fəlakətlə üzləşmişdir. 1990-cı illərin əvvəllərində Ermənistanın Azərbaycana silahlı təcavüzü nəticəsində torpaqlarımızın 20 faizi işğal altına düşüb. Bu işğal və etnik təmizləmə siyasəti nəticəsində bir milyondan artıq azərbaycanlı öz doğma torpağında qaçqın-köçkün vəziyyətinə düşmüşdür. Bizim tarixi əzəli torpağımız Dağlıq Qarabağ və onun ətrafında yerləşən yeddi rayon Ermənistan tərəfindən işğal edilib, günahsız insanlar qətlə yetirilib, xalqımıza qarşı hərbi cinayət, Xocalı soyqırımı törədilib. Xocalı şəhərində soyqırımı nəticəsində 613 dinc insan qətlə yetirilib. Onlardan 106-sı qadın, 63-ü uşaqdır. Bütün bu erməni vəhşilikləri sənədləşdirilib, videomateriallar, fotomateriallar, şahidlərin ifadələri var. Artıq dünyanın on ölkəsi Xocalı soyqırımını soyqırımı kimi tanıyıb.

İşğal edilmiş torpaqlarda bizim tarixi, dini abidələrimiz ermənilər tərəfindən dağıdılıb. Bu barədə də faktlar var. ATƏT işğal edilmiş torpaqlara iki dəfə faktaraşdırıcı missiya göndərib və onların məruzələrində bu, açıq şəkildə göstərilir. Bütün şəhərlər yerlə-yeksan edilib, infrastruktur, qəbirlər dağıdılıb. Onlar qəbirlərimizin üstünə buldozer salmışlar, dağıtmışlar. Məscidlərimiz dağıdılıb. Bakının mərkəzində erməni kilsəsi var. Biz o kilsəni bərpa etmişik. İndi o kilsədə erməni dilində 5 mindən çox kitab saxlanılır. Onlar isə bizim məscidlərimizi yerlə-yeksan ediblər. Fərq bundan ibarətdir. Erməni faşizmi böyük fəlakət törədib və günahsız insanlar bu gün də erməni siyasətindən əziyyət çəkirlər.

Bütün beynəlxalq təşkilatlar bizim mövqeyimizi birmənalı şəkildə dəstəkləyir. Xüsusilə dünyanın birinci və ən ali beynəlxalq qurumu olan BMT, onun Baş Məclisi dəfələrlə qətnamələr qəbul etmişdir. BMT Təhlükəsizlik Şurası dörd qətnamə qəbul etmişdir ki, orada erməni silahlı qüvvələrinin işğal edilmiş torpaqlardan qeyd-şərtsiz və dərhal çıxarılması nəzərdə tutulur. Əfsuslar olsun ki, Ermənistan bu qətnamələrə məhəl qoymur və bu qətnamələrin icra edilməsi mexanizmi yoxdur. Bu da böyük ədalətsizlikdir. Biz bunu ikili standartlar siyasəti kimi qəbul edirik. Çünki bəzi hallarda BMT Təhlükəsizlik Şurasının qətnamələri, - yaxın tarix bunu göstərir, - günlər ərzində, bəlkə də saatlar ərzində icra edilir və təcavüzkar cəzalandırılır. Bizə gəldikdə, bu qətnamələrin qəbul edilməsindən 20 ildən çox vaxt keçib və onlar icra edilmir. Bu qətnamələri qəbul edənlər onların icrasını tələb etmirlər.

Digər beynəlxalq təşkilatlar oxşar qərar və qətnamələr qəbul etmişlər. İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası Parlament Assambleyası, Avropa Parlamenti, Qoşulmama Hərəkatı, ATƏT, yəni, bütün beynəlxalq təşkilatlar bizim mövqeyimizi dəstəkləyir. Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz tarixi hissəsidir. Eyni zamanda, beynəlxalq hüquq baxımından da ayrılmaz hissəsidir. Ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Ölkəmizin ərazi bütövlüyü heç bir başqa ölkənin ərazi bütövlüyündən az əhəmiyyət kəsb etmir və beynəlxalq hüquq təmin edilməlidir.

Bu problemə baxmayaraq, ölkəmiz inamla inkişaf edir, biz güclənirik. Gələn ay biz müstəqilliyimizin bərpasının 25 illiyini qeyd edəcəyik. Bu 25 ilin əksər illəri inkişaf və tərəqqi illəri olmuşdur. Azərbaycan bu gün dünya miqyasında böyük nüfuza malikdir. Bir neçə il bundan əvvəl dünyanın 155 ölkəsi böyük etimad göstərərək bizi BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçmişdir.

Ölkəmizdə humanitar məsələlər öz həllini tapır. Biz bu məsələlərə çox böyük diqqət göstəririk. Son 13 il ərzində Azərbaycanda 3 mindən çox məktəb, 600-dən çox xəstəxana, tibb mərkəzi tikilib, təmir edilib. Məcburi köçkünlərin problemləri həllini tapır. Doxsandan çox qəsəbə salınmışdır və 250 mindən çox köçkünə yeni evlər, mənzillər verilmişdir.

Ölkə iqtisadiyyatı inkişaf edir. Son 13 il ərzində ümumi daxili məhsul üç dəfə artmışdır. Bizim böyük valyuta ehtiyatlarımız var və onlar ümumi daxili məhsulumuza bərabərdir. İşsizliyin, yoxsulluğun azaldılması ilə bağlı çox ciddi addımlar

➪ 3

# Bakıda V Beynəlxalq Humanitar Forum işə başlayıb

## Azərbaycan Prezidenti İlham Əliyev Forumun rəsmi açılış mərasimində iştirak edib

⇦ 2 atılmışdır. Bu gün həm işsizlik, həm yoxsulluq ölkəmizdə təxminən beş faiz səviyyəsindədir. Savadlılıq təxminən 100 faizdir. Azərbaycan iqtisadiyyatının böyük bir hissəsi təbii resurslarla bağlıdır. Neftin qiymətinin kəskin düşməsinə baxmayaraq, Azərbaycan bu böhrandan çox az itkilərlə çıxır və bu gün dinamik inkişaf davam edir. Dünən mənə məlumat verildi ki, Davos Dünya İqtisadi Forumu ölkələrin rəqabət qabiliyyətliyinə görə Azərbaycanı 37-ci yerə layiq görüb. Dünya miqyasında rəqabət qabiliyyətliyinə görə 37-ci yeri tutmaq hesab edirəm ki, gənc dövlət üçün böyük nailiyyətdir. Nəzərə alsaq ki, bizim müstəqilliyimizin ilk illəri çox ağır keçirdi, çox dərin siyasi böhran, iqtisadi böhran yaşanırdı. Qaçqınların, köçkünlərin adambaşına düşən sayına görə Azərbaycan dünyada ilk yerlərdədir. Bu, çox acı statistikadır, amma bu, belədir. Bu da əlbəttə ki, bizim maliyyə resurslarımızı cəlb edib. Bütün bunlara baxmayaraq düzgün iqtisadi siyasət, cəmiyyətdəki əmin-amanlıq, sabitlik, qonşularımızla yaxşı münasibətlər, beynəlxalq təşəbbüslərimiz bu gün Azərbaycanı dünyada sabitlik və inkişaf məkanı kimi təqdim edir.

Biz fəxr edirik ki, 25 il müstəqil dövlət kimi yaşayırıq, öz hesabımıza yaşayırıq, heç kimə borclu deyilik, heç kimdən asılı deyilik, müstəqilliyi hər şeydən üstün tuturuq, xalqımız azaddır, taleyimiz öz əlimizdədir. Gözəl ölkə qurmuşuq və bundan da gözəl olacaq. İstəyirik ki, ümumi işimizə daha böyük töhfə verək. Bakı Beynəlxalq Humanitar Forumunun keçirilməsi də bu niyyətin bir hissəsidir.

Mən bütün qonaqlara ölkəmizə gəldikləri üçün bir daha minnətdarlığımı bildirmək istəyirəm. Foruma uğurlar arzulayıram. Sağ olun.

* * *

Rusiya Hökumətinin sədr müavini Olqa QOLODETS Prezident Vladimir Putinin Forum iştirakçılarına müraciətini oxuyub. Rusiyanın dövlət başçısı müraciətində qısa müddətdə beynəlxalq aləmdə tanınan və aktual məsələlərin müzakirə olunduğu Forumun gündəliyində olan məsələlərin dünyada humanitar əməkdaşlığa töhfə verəcəyinə əminliyini ifadə edib.



Rusiya Hökumətinin sədr müavini Olqa Qolodets çıxışında xalqlar arasında bütün səviyyələrdə münasibətlərin gücləndirilməsinin əhəmiyyətinə toxundu, Azərbaycan və Rusiya prezidentlərinin birgə fəaliyyətinin bu baxımdan mühüm əhəmiyyət daşıdığını qeyd edib. Olqa Qolodets ölkələrimiz arasında humanitar sahədə əlaqələrin böyük gələcəyinin olduğunu diqqətə çatdırıb.

* * *

BMT baş katibinin müavini Cihan SULTANOĞLU qurumun baş katibi Pan Gi Munun Forum iştirakçılarına müraciətini oxudu. Məktubda İstanbulda keçirilən Dünya Humanitar Sammitində Prezident İlham Əliyevin iştirakı yüksək qiymətləndirilib. Dünyada yaşanan miqrant böhranından ciddi narahatlıq keçirdiyini deyən Pan Gi Mun Bakı Beynəlxalq Humanitar Forumunun bu böhranın qarşısının alınmasına töhfə verəcəyini bildirib.

BMT-nin İnkişaf Proqramı adından çıxış edən baş katibin müavini Cihan Sultanoğlu Prezident İlham Əliyevə bu tədbirin keçirilməsindəki dəstəyinə görə minnətdarlıq edib. O bu Forumun BMT-nin 2030-cu ilədək davamlı inkişafla bağlı nəzərdə tutduğu tədbirlərə əhəmiyyətli töhfə verəcəyini bildirərək ölkəmizi müstəqil olduğu 25 ildə əldə etdiyi nailiyyətlər münasibətilə təbrik etdi. İqtisadi artım, sosial islahatlar, "ASAN" brendinin fəaliyyətə başlamasının ölkəmizin nailiyyətləri arasında mühüm yer tutduğunu deyən Cihan Sultanoğlu Azərbaycan sülhməramlılarının münaqişə ocaqlarındakı fəaliyyətini, ümumiyyətlə, ölkəmizin humanitar əməkdaşlığa verdiyi töhfəni yüksək qiymətləndirib. O, əmin olduğunu vurğulayıb ki, Azərbaycan BMT-nin davamlı inkişaf məqsədlərinin irəli aparılmasında fəal rolunu davam etdirəcək.

ISESCO-nun baş direktoru Əbdüləziz Osman əl-TUVEYCRİ çıxışında bildirib ki, Prezident İlham Əliyevin səyləri və təşəbbüsləri sayəsində dünyada sülhə və əməkdaşlığa töhfə verilib. "Azərbaycan UNESCO və ISESCO-nun vacib tədbirlərinin keçirildiyi məkana çevrilib", - deyən Tuveycri böyük dövlətlərin dünyada sülhün və təhlükəsizliyin qorunması istiqamətində daha ciddi səylər göstərməsinin vacibliyini bildirib. BMT Təhlükəsizlik Şurasının digər münaqişələrlə yanaşı, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi işində daha çox iş görməli olduğunu deyən ISESCO-nun baş direktoru bu münaqişələrin həllində yubanma və ləngimənin daha ağır fəsadlara səbəb ola biləcəyini vurğulayıb. Bildirib ki, Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etmək səylərinə ISESCO bundan sonra da dəstəyini davam etdirəcək.

UNESCO-nun baş direktorunun müavini Qetaçyu ENQİDA sülhə təhdid doğuran indiki qloballaşma dövründə yoxsulluğun artdığını, qaçqın və köçkünlərin sayının çoxaldığını, uşaqların və gənclərin bundan daha çox əziyyət çəkdiyini diqqətə çatdırıb. Bununla yanaşı, vurğulayıb ki, UNESCO münaqişələr zamanı mədəni irsin dağıdılması hadisələrindən çox narahatdır və bu kimi halların qarşısının alınması ilə bağlı tədbirlərin gücləndirilməsini vacib bilir. Dünyada sülh mədəniyyətinin daha da möhkəmləndirilməsinin əhəmiyyətinə toxunan Q.Enqida UNESCO-nun əsas tərəfdaşı olan Azərbaycan hökumətinin başlatdığı dünya mədəniyyətlərarası dialoq platformasının uğurlarından danışıb.

Bununla da V Bakı Beynəlxalq Humanitar Forumunun rəsmi açılış mərasimi başa çatıb.

Forum işini plenar iclasla və "dəyirmi masa" rəhbərlərinin çıxışları ilə davam etdirib.

# Bakıda "Multikultural cəmiyyət və turizm" mövzusunda "dəyirmi masa" keçirilib

**Bakıda BMT-nin Dünya Turizm Təşkilatı (DTT) ilə əməkdaşlıq çərçivəsində Mədəniyyət və Turizm Nazirliyi tərəfindən sentyabrın 27-də "Multikultural cəmiyyət və turizm" mövzusunda "dəyirmi masa" keçirilib. Tədbir 2016-cı ilin ölkəmizdə "Multikulturalizm ili" elan olunması və Azərbaycanın DTT-yə üzv qəbul edilməsinin 15 illik yubileyinə həsr olunub.**

Tədbirdə mədəniyyət və turizm naziri Əbülfəs Qarayev çıxış edərək son vaxtlar dövlətimizin bir çox sahələrdə qazandığı nailiyyətlərdən danışıb. Bildirib ki, Azərbaycanın beynəlxalq tədbirlərə ev sahibliyi etməsi dövlətimizin dünyada artan nüfuzundan və qüdrətindən xəbər verir. "Multikultural cəmiyyət və turizm" mövzusunda "dəyirmi masa"nın Dünya Turizm Günündə və Azərbaycanda "Turizm işçiləri günü"ndə keçirilməsi olduqca əhəmiyyətlidir.

Nazir ölkəmizdə turizm sənayesinin inkişafından danışaraq vurğulayıb ki, bu sahə hər zaman Prezident İlham Əliyevin diqqət və qayğısı ilə əhatə olunub. Bu yaxınlarda dövlətimizin başçısının müvafiq sərəncamları bir daha göstərdi ki, turizmin inkişafı hökumət siyasətinin prioritet istiqamətlərindəndir. Ölkəmizdə multikulturalizm və mədəniyyətlərarası dialoqun inkişafından söz açan nazir Azərbaycanın bu yöndə dünya dövlətləri arasında tutduğu mövqedən bəhs edib.

Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri Kamal Abdullayev tədbirdə çıxış edərək multikulturalizm ənənələrindən söz açıb: "Bu gün Azərbaycan multikulturalizmindən danışarkən Ulu Öndər Heydər Əliyevin "Multikulturalizm Azərbaycan xalqının canına, qanına xas olan bir dəyərdir" sözlərindən çıxış edirik. Prezident İlham Əliyevin xalqın milli dəyərlərinə sadiq qalaraq 2016-cı ili "Multikulturalizm ili" elan etməsi dövlətimizin hər bir vətəndaşının dünya dəyərlərinə hörmətlə yanaşmasının göstəricisidir. Azərbaycanda yaşayan müxtəlif millətlərin və konfessiyaların nümayəndələri bir-biri ilə ahəngdar rəftar edirlər. Bu gün Azərbaycan cəmiyyəti dünyanın aparıcı cəmiyyətləri sırasında qərarlaşır. Bunun nəticəsidir ki, dünya xalqları və ölkələri tərəfindən Azərbaycana diqqətcil münasibət göstərilir. Azərbaycan multikulturalizmi Portuqaliyadan tutmuş İndoneziyayadək ölkələrin universitetlərində tədris edilir. Bu da xalqımızın mədəniyyətinin, ictimai-siyasi həyatının, ədəbiyyatının, dilinin və dininin öyrənilməsi deməkdir. Bu gün Avropanın bir sıra ölkələri multikulturalizmdən imtina ediblər. Bu, multikulturalizmə olan bədbin münasibətin nəticəsidir. Dövlətimizin başçısının ölkəmizdə multikulturalizmi dövlət siyasəti elan etməsi multikultural həyatın nikbin ruhunu müəyyənləşdirir. Belə ki, multikultural cəmiyyətdə turizmin inkişafı və bu yöndə atılan addımlar da təqdirəlayiqdir, alqışlanası addımlardır".

DTT-nin proqramlar və əlaqələndirmə üzrə icraçı direktoru Zoltan Somogyi bildirib ki, son zamanlar Azərbaycanın turizm sahəsində əldə etdiyi uğurlar danılmazdır. Turizm sənayesinin inkişafı ölkə iqtisadiyyatının əsas parametrlərindən biridir. Prezident İlham Əliyevin müvafiq Sərəncamına əsasən bu ildən başlayaraq hər il sentyabrın 27-nin Azərbaycanda "Turizm işçiləri günü" peşə bayramı kimi qeyd edilməsi təqdirəlayiqdir.

Diqqətə çatdırılıb ki, Multikultural cəmiyyətdə turizmin inkişafı, ümumiyyətlə, bu sahənin perspektivləri və turistlərin ölkəyə cəlb olunması istiqamətində zəruri işlər görülməlidir. Turizmin inkişafı üçün dünyada sülhün bərqərar olması vacibdir.

Türkiyənin mədəniyyət və turizm naziri Nabi Avcı iki ölkə arasında müxtəlif sahələrdə əməkdaşlığa toxunaraq vurğulayıb ki, bu gün Azərbaycanda bütün sahələrdə, o cümlədən turizm sənayesində böyük irəliləyişlər müşahidə edilir. Türkiyənin və Azərbaycanın zəngin mədəniyyətə sahib olduğunu bildirən türkiyəli nazir, dünyada mədəniyyətlərarası dialoqun əhəmiyyətindən və Azərbaycanda multikultural dəyərlərdən söz açıb.

Tədbirdə Bakıda keçirilmiş BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunu əks etdirən videoçarx nümayiş olunub.

Daha sonra "dəyirmi masa" "Multikulturalizmin turizmdə rolu" və "Mədəniyyətlər arasında tolerantlıq və anlaşmanın inkişafında turizmin rolu" mövzularında panellərlə öz işini davam etdirib.

# Kamal Abdullayev: “Azərbaycanda radikal və ekstremist cərəyanların fəaliyyəti xeyli məhdudlaşıb”

*Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə dövlət müşaviri, akademik Kamal Abdullayevin APA-ya müsahibəsi (qısa ixtisarla)*

**- “Multikulturalizm ili” çərçivəsində Bakı Beynəlxalq Multikulturalizm Mərkəzində hansı işlər görülüb?**

- 2016-cı ilin Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyevin Sərəncamı ilə “Multikulturalizm ili” elan edilməsindən sonra təsdiq olunmuş Tədbirlər Planına uyğun olaraq ölkə daxilində və xaricində müxtəlif dövlət qurumları tərəfindən Azərbaycan multikulturalizmi modelinin təbliğinə yönəlmiş müxtəlif silsilə tədbirlər keçirilməyə başladı.

Sizin də çox yaxşı bildiyiniz kimi, 2014-cü ildə cənab Prezident tərəfindən Azərbaycanda mövcud olan multikulturalizm ənənələrinin dünya ictimaiyyətinin diqqətinə çatdırmaq məqsədilə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılıb. “Multikulturalizm ili” çərçivəsində Mərkəzin təşkilatçılığı ilə 40-a yaxın xarici və yerli ali təhsil ocaqlarında bakalavriat səviyyəsində “Multikulturalizmə giriş”, magistratura səviyyəsində isə “Azərbaycan multikulturalizmi” fənləri tədris proqramlarına daxil edilərək tədris olunur. Eyni zamanda, “Azərbaycan multikulturalizmi” fənni 2016-cı ilin yaz semestrinə qədər Müqəddəs Kliment Oxridski adına Sofiya Universiteti (Bolqarıstan), İvan Cavaxişvili adına Tbilisi Dövlət Universiteti (Gürcüstan), Ural Federal Universiteti (Rusiya Federasiyası), Litva Pedaqoji Universiteti (Litva), Praqa Karl Universiteti (Çexiya), Roma Sapienza Universiteti (İtaliya), Belarus Dövlət Universiteti (Belarus), Lusafona Universiteti (Portuqaliya), Ausburq Universiteti (Almaniya), Frayburq Universiteti (İsveçrə) və Sakarya Universitetində (Türkiyə), Qadcah Mada Universiteti (İndoneziya) və başqa universitetlərində tədris olunub. Hazırda tədrisin həyata keçirildiyi universitetlərdə “Azərbaycan multikulturalizmi” kafedralarının açılması istiqamətində işlər görülməkdədir.

Bundan əlavə, ilin əvvəlində Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi tərəfindən Azərbaycan multikulturalizminin qaynaqları seriyasından olan “Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları” kitabı və “Multikulturalizm” adlı jurnalın 1-ci nömrəsi nəşr olunub, ölkənin müxtəlif bölgələrində təqdimatları keçirilib.

Bu günə qədər Mərkəz və Azərbaycan Respublikası Prezidenti yanında Bilik Fondunun birgə təşkilatçılığı ilə 20-dən artıq ölkədən 100-dən çox xarici və 70-dən çox yerli tələbənin iştirakı ilə paytaxtda və müxtəlif bölgələrdə - Quba, Qusar, Xaçmaz, Qəbələ, Şəki, Oğuz, Qaxda Beynəlxalq multikulturalizm qış və yay məktəbləri keçirilib. Bu məktəblərdə iştirak edən xarici və yerli tələbələr, əsasən, təhsil aldıqları universitetlərdə “Azərbaycan multikulturalizmi” fənnini uğurla mənimsəyən və Azərbaycan mədəniyyəti, tarixi, ədəbiyyatı, bir sözlə, Azərbaycan multikulturalizmi haqqında qazandıqları nəzəri bilikləri bu məktəblərdə praktik şəkildə daha da möhkəmləndirirlər. Bu məktəblər onların Azərbaycana marağını Azərbaycana məhəbbətə çevirir.



Maraqlı bir faktı da diqqətinizə çatdırmaq istəyirəm ki, III Beynəlxalq multikulturalizm yay məktəbi çərçivəsində Litva Pedaqoji Universitetinin magistrantı Salomeya Lukaite və Yunanıstan Amerikan Kollecinin tələbəsi Dimitrios Asproulisin təşəbbüsü ilə “Azərbaycanın gənc dostları” Beynəlxalq Klubu yaradılıb və hazırda uğurla fəaliyyət göstərir. Artıq Azərbaycanın gənc dostları bizim iştirakımız olmadan da Azərbaycan multikulturalizmini dünyada təbliğ edirlər.

Mütəmadi olaraq Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi müxtəlif dövlət qurumları ilə birlikdə mədəni müxtəliflik, tolerantlıq və konfliktlərin həllində mədəniyyətlərarası dialoqun rolu, multikulturalizmin Azərbaycan modeli və dünya multikulturalizm modelləri mövzularında respublika və beynəlxalq miqyaslı elmi-nəzəri, elmi-praktik konfranslar, seminarlar, “dəyirmi masa”lar, mühazirələr, ədəbi-bədii toplantılar keçirməkdədir. Bunlara misal olaraq aprel ayının 27-də BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumu çərçivəsində “Multikultural cəmiyyətin formalaşdırılmasında Azərbaycanın rolu” mövzusunda bölmə iclasını, iyun ayının 28-də “Terror multikulturalizmə qarşı” layihəsi çərçivəsində “Erməni terroru və Azərbaycan multikulturalizmi” mövzusunda I Beynəlxalq “dəyirmi masa”nı, iyul ayının 20-də Qəbələ şəhərində baş tutmuş “Alban Apostol Kilsəsinin keçmişi və bu günü” mövzusunda beynəlxalq konfransı və Londonda keçirilmiş “Azərbaycanın dini tolerantlıq və birgə yaşayış modeli” mövzusunda konfransı göstərmək olar.

**- Azərbaycanda dini məsələlərlə bağlı vəziyyəti necə qiymətləndirirsiniz? Bu sahədə hər hansı narahatlıq varmı?**

- Azərbaycan tarixən müxtəlif din və mədəniyyətlərin birgə, yanaşı yaşadığı məkan olub. Hazırda ölkədə dini durum sabit, dinlərarası münasibətlərdə dözümlülük və qarşılıqlı anlaşma səviyyəsi yüksəkdir. Bu gün ölkə vətəndaşlarının hüquq və azadlıqlarının təmin olunması üçün bütün zəruri tədbirlər görülür. Eyni zamanda, müvafiq dövlət qurumları dini durumu davamlı təhlil edir, müxtəlif din və məzhəbləri təmsil edən dini icmalar arasında qarşılıqlı hörmət prinsiplərinin qorunub saxlanılması, radikal dini cərəyanların yayılmasının qarşısının alınması istiqamətində tədbirlər həyata keçirir. Ən ciddi fəaliyyət isə cənab Prezidentin 2016-cı ili ölkəmizdə “Multikulturalizm ili” elan etməsi ilə bağlı qərarından sonra həyata keçirilən çoxsaylı tədbirlər oldu. Bu sahədə oyanış və ciddi irəliləyiş müşahidə olunmağa başladı. Ölkə daxilində və xaricində bir çox tədbirlər, konfranslar keçirildi, xarici qonaqların ölkəmizdəki multkulturalizm ənənələri ilə tanış olmaq məqsədilə ölkəmizə səfərləri artdı, eyni zamanda, dindarlarımız da Azərbaycandakı multikultural və tolerant mühitin özünəməxsusluqlarını dünya ictimaiyyətinə və xüsusən də, müxtəlif ölkələrin dini liderlərinə çatdırmaq üçün əlavə imkanlar əldə etdilər.

Dövlət başçımız cənab İlham Əliyev din sahəsinə, məscid, kilsə və sinaqoqların təmir və bərpasına xüsusi diqqət və qayğı göstərir. Azərbaycan din sahəsinə dövlət səviyyəsində maliyyə ayıran, dini ibadət yerlərini dövlət hesabına təmir və bərpa edən azsaylı ölkələrdəndir.

Eyni zamanda, Azərbaycanda dini tolerantlıq mədəniyyətinin inkişaf etdirilməsində, milli-mənəvi dəyərlərimizin təbliğində Heydər Əliyev Fondunun prezidenti, ölkəmizin birinci xanımı Mehriban xanım Əliyevanın misilsiz xidmətləri var. Heydər Əliyev Fondu hər bir layihəsi ilə müxtəlif ölkələrdə xalqlar arasında humanizm, həmrəylik və dözümlülük kimi bəşəri dəyərlərin bərqərar olmasına öz töhfəsini verməyə çalışır. Uğurla həyata keçirilən “Tolerantlığın ünvanı - Azərbaycan” layihəsi çərçivəsində vətənimizdəki məscidlərdə, kilsələrdə, sinaqoqlarda təmir-bərpa işləri aparılır.

**- Azərbaycanda dini radikalizm hansı səviyyədədir?**

- Azərbaycan dövlət müstəqilliyini bərpa etdiyi ilkin dövrlərdə bir sıra qeyri-ənənəvi dini təriqətlər ideologiyalarını ölkəmizdə yaymağa cəhd göstərərək müəyyən sayda ölkə vətəndaşlarını öz sıralarına cəlb etməyə nail olmuşdu. Ulu Öndər Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışından sonra digər sahələrdə olduğu kimi, dini fəaliyyət sahəsində də qətiyyətli, ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirildi. Tam əminliklə söyləyə bilərəm ki, o zaman həmin tədbirlər həyata keçirilməsəydi, biz bu gün ölkədə dini sahədə tam fərqli və namünasib bir mənzərənin şahidi olardıq. Həmin dövrdə qonşu respublikalarda dini sahədə müəyyən gərginliklər müşahidə olunsa da, Azərbaycanda sabitlik hökm sürdü.

Hazırda hüquq-mühafizə orqanları radikal və ekstremist meyllərin qarşısının alınması məqsədilə ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirir. Ölkədə bütün radikal dini cərəyanların fəaliyyəti nəzarətə götürülüb, zərərli dini ədəbiyyatın idxalının və ölkədə yayılmasının qarşısı alınıb. Eyni zamanda, qanunlara müəyyən əlavə və dəyişikliklər edilib, “Dini ekstremizmə qarşı mübarizə haqqında” Qanun qəbul olunub. Buna paralel olaraq ölkədə geniş maarifləndirmə tədbirləri həyata keçirilir. Son bir ildə şəhər və rayonlarda yüzlərlə belə tədbirlər həyata keçirilib, artıq bu tədbirlərin səmərəsi açıq hiss olunur.

Fürsətdən istifadə edərək qeyd etmək istəyirəm ki, bütün ölkə vətəndaşları qanunun aliliyini qorumalıdırlar. Bu, ən şərəfli vəzifədir. Dövlət dini etiqad və vicdan azadlığı üçün lazım olan hər cür şərait yaradıb, vətəndaşların üzərinə düşən əsas vəzifə qanunun tələblərini yerinə yetirmək, dövlətin həyata keçirdiyi quruculuq işlərində yaxından iştirak etməkdir.

**- Ölkəmizdə dini təhsil sahəsində vəziyyət necədir? Kadr təminatı sahəsində problemlər varmı?**

- Bildiyiniz kimi, Azərbaycan hökuməti dini təhsil sahəsinə xüsusi qayğı və diqqət göstərir, təhsilin səviyyəsinin beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində daim müəyyən tədbirlər həyata keçirir.

Ölkədə bütün radikal dini cərəyanların fəaliyyəti nəzarətə götürülüb, zərərli dini ədəbiyyatın idxalının və ölkədə yayılmasının qarşısı alınıb. Eyni zamanda, qanunlara müəyyən əlavə və dəyişikliklər edilib, “Dini ekstremizmə qarşı mübarizə haqqında” Qanun qəbul olunub. Buna paralel olaraq ölkədə geniş maarifləndirmə tədbirləri həyata keçirilir.

⇨ 5

# Kamal Abdullayev: “Azərbaycanda radikal və ekstremist cərəyanların fəaliyyəti xeyli məhdudlaşıb”

⇐4

Bu gün Azərbaycanda təhsil müəssisələrinin normal fəaliyyət göstərməsi üçün dövlət lazım olan bütün addımları atır və bundan sonra da zəruri tədbirləri görəcək. Hazırda bu sahə dövlətin ciddi nəzarətindədir. Bu gün ölkədə iki ali məktəb – Bakı Dövlət və Bakı İslam universitetləri ali dini təhsil verir. Din sahəsində mütəxəssislərin hazırlanmasında bu təhsil ocaqlarının rolu böyükdür. Bununla yanaşı, ölkədə bir neçə dini mədrəsə fəaliyyət göstərir. Yeni mədrəsələrin açılması ilə bağlı müəyyən hazırlıq işləri görülür. Eyni zamanda, Qafqaz Müsəlmanları İdarəsi din sahəsində mütəxəssislərin bilik və bacarıqlarının artırılması məqsədilə faydası böyük olan hazırlıq kursları təşkil edir.

**- Xaricdə dini təhsil alanların statistikası barədə məlumat varmı?**

- Ümumiyyətlə, bu günə kimi təxminən 1000-ə yaxın Azərbaycan Respublikasının vətəndaşı xaricdə dini təhsil almağa gedib, onların böyük bir qismi artıq Azərbaycana dönüb. Bu şəxslərin çoxu müstəqilliyin ilk illərində xaricə təhsil almağa gedənlərdir. Onu da qeyd edim ki, hazırda bu tendensiyanın zəiflədiyi müşahidə olunur. Həmin tələbələrin bu gün fəaliyyəti əlaqədar dövlət qurumlarının qayğısı və nəzarəti altındadır. Xüsusilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Qafqaz Müsəlmanları İdarəsi həmin tələbələrin cəmiyyətdə özünə yer tapması, işlə təmin edilməsi, dini və dünyəvi biliklərinin artırılması, eləcə də digər problemlərinin həlli istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirir.

**- Müşavir təyin edildikdən sonra dini sahədə hansı problemlərin həllinə ilk növbədə diqqət yetirməyi zəruri saydınız və bu problemlərin həlli istiqamətində ötən dövrdə hansı uğurlar əldə olunub?**

- Bildiyiniz kimi, mən bu vəzifəyə təyin olunduqdan sonra ilk işim Azərbaycanın bütün bölgələrinə səfər edərək dini ibadət yerlərinə baş çəkmək, dindarlarımızla, müxtəlif konfessiyaların nümayəndələri ilə görüşüb söhbət etmək və dini durumu dərindən öyrənmək oldu. Həmin dövr ölkədə dini durum bir qədər gərgin idi, Azərbaycan vətəndaşlarının xarici ölkələrdə döyüşlərə cəlb edilməsi ilə bağlı həyəcanlı xəbərlər yayılırdı. Bu sahədə dövlət təşkilatları ilə koordinasiyalı şəkildə gördüyümüz əsas işlərdən biri radikal və ekstremist cərəyanların ölkədə yayılmasının qarşısının alınması və maarifləndirmə işinin gücləndirilməsi oldu. Son bir neçə ildə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Qafqaz Müsəlmanları İdarəsi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi və Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun xətti ilə maarifləndirmə sahəsində bir sıra ardıcıl və məqsədyönlü layihələr həyata keçirilib. Ölkəmizin ümumi inkişafı, dünyanın aparıcı ölkələri sırasında qətiyyətli, özünəinamlı şəkildə yer alması da öz-özlüyündə dini müstəvinin loyallaşma dərəcəsini yüksəldib. Radikal və ekstremist cərəyanların fəaliyyəti xeyli məhdudlaşıb, Heydər Məscidinin nümunəsi, Qafqaz Müsəlmanları İdarəsinin təşviqi əsasında bir sıra məscidlərdə vəhdət namazlarının qılınmasına, məscidlər arasında mənəvi bağların gücləndirilməsinə nail olunub. Bu, bütün dünya üçün örnək hadisədir. Artıq ziyarətgahlar və məscidlər mənsub olduqları məzhəbdən asılı olmayaraq bir-birinə birbaşa yardım əli uzadır. Mir Mövsüm Ağa ziyarətgahının Zaqatalanın Əliabad kənd məscidində aparılan təmir işlərinə yardım göstərməsi buna bariz nümunədir. Eyni zamanda, Azərbaycan alimlərinin Bərdə İmamzadə Kompleksində aparılan təmir və bərpa işlərində yaxından iştirak etməsi onlar arasında birliyin və həmrəyliyin yüksək göstəricisidir.

**- Yas mərasimlərinin təmtəraqlı təşkil olunması barədə nə deyə bilərsiniz?**

- Bu məsələ məcburi olmur, bu, ictimaiyyətin işidir və insanlar özləri bu haqda öz sözlərini deməlidirlər. Bilirsiniz ki, Naxçıvanda bu məsələ nümunəvi şəkildə öz təbii həllini tapıb. Bəzi başqa yerlərdə də biz bunun müsbət təzahürlərini görürük. Həyat özü hər şeyi tənzim edir və edəcək. Müsəlman ölkələrində bizdə təşkil olunan yas mərasimləri kimi mərasimlər, demək olar ki, yoxdur və dini müstəvidə baş verən proseslər din daşıyıcıları, ictimaiyyət tərəfindən tənzimlənir. İnanıram ki, yavaş-yavaş bu məsələdə də optimal nəticəyə gələcəyik.

**- Məscidlərdə kitabxanaların yaradılması barədə informasiyalar yayılmışdı. Bu məsələ nə yerdədir?**

- Bölgələrdə səfərdə olarkən məscidlərin kitab rəflərində ən yaxşı halda yalnız dini ədəbiyyatın olduğunu gördüm. Düşünürdüm ki, ibadət ocaqlarında dini kitablarla yanaşı, dünyəvi mövzulara aid kitabların da olmasına böyük ehtiyac var. Ömrünün mənasını İmam Hüseyn türbəsinə xidmət etməkdə görmüş dahi şairimiz Füzulinin əsərləri məscidlərdə niyə olmasın? Digər klassiklərimizin də həmçinin. Dindarlar məscidə ancaq namaz qılmağa və moizəyə qulaq asmağa gəlməməlidirlər. Məscid bu gün ancaq məscid yox, həm də mənəviyyat, tərbiyə və maarif mərkəzi olmalıdır. Təbii ki, belə məscidin axundu və imamı insanların maariflənməsi yolundakı ehtiyaclarını adekvat şəkildə ödəməlidir. O, daim özünü elmi baxımdan təkmilləşdirməlidir. Bu gün öyrənmək istəyənlərin tələbi çox yüksəkdir. Artıq məscidlərdə kitabxana ilə bağlı bir sıra işlər görülüb. Bakıda və respublikanın bir sıra rayon və şəhərlərinin məscidlərində, ziyarətgah komplekslərində həm dini, həm də dünyəvi məzmunlu ədəbiyyat üçün rəflər ayrılıb, kiçik də olsa, kitabxanalar yaradılıb. Hazırda bu istiqamətdə işlər davam etdirilir. Mütəmadi olaraq Azərbaycan məscidlərinə yeni kitablar paylanılır.

**- Bilik Fondunun fəaliyyəti haqda danışmağınızı istərdik. Fond hazırda hansı layihələri həyata keçirir?**

- Bu qurum da ölkə əhalisinin müxtəlif istiqamətlərdə maarifləndirilməsi üçün cənab Prezidentin böyük uzaqgörənlikdə yatdığı qurumlardan biridir. Paytaxt və regionlarda, ən müxtəlif sosial zümrələr arasında maarifləndirmə işi aparan Bilik Fondunun 300-dən çox mühazirəçisi, Azərbaycanın 76 şəhər və rayonunda nümayəndəsi var. Onların əksəriyyəti tanınmış ziyalılar, elm, təhsil təşkilatçısı, maarifçi insanlardır. Bilik Fondu əhalimizin maarifləndirilməsi, müxtəlif elm sahələrinin mütəxəssislərinin dünyada baş verən elmi yeniliklərdən xəbərdar olması üçün Çexiya, Almaniya, ABŞ, Rusiya, Türkiyə, Gürcüstan, Qazaxıstan, Moldova və digər ölkələrdən dəvət edilmiş alimlərin də mühazirələrini təşkil edir. Fond Nardaran, Oğuz, Qax və Şəmkir rayonlarında bilik evləri açıb, Astara və İsmayıllıda bilik evlərinin açılması oktyabrın 5-də - Müəllimlər Günündə olacaq.

Bilik Fondu həm də gənclərimizin məşğuliyyəti ilə bağlı layihələr həyata keçirməkdədir. Bir faktı deyim ki, Qax Bilik Evi 5 qonşu rayondan olan 15 nəfər müxtəlif avtomobil təmiri sexlərində şagird kimi çalışan, həmçinin işsiz gənclər üçün yeni nəsil avtomobillərin təmiri kursları təşkil etdi və bu kursları bitirən gənclərin əksəri hazırda müxtəlif avtomobil təmiri sexlərində usta kimi çalışırlar. Bilik Fondu Rus Pravoslav Kilsəsinin və ölkəmizdəki Rus İcmasının müraciəti əsasında rus vətəndaşlarımız üçün Azərbaycan dili kursları təşkil edir, artıq bu kursları bitirənlər də var.

Nardaran Bilik Evinin təşəbbüsü ilə Bakı şəhərinin bir sıra kənd və qəsəbələrinin gəncləri üçün “Avto Azərbaycan” şirkətində yeni nəsil maşınlara texniki yardım göstərilməsi üzrə təlim kursu davam etməkdədir.

Fondun “Qafqaz Albaniyasının intibahı”, “Kitabi-Dədə Qorqud-Fridrix fon Dits-200”, “İl boyu bilik”, “Dini abidələrdə tarixin izləri”, “Yaradıcılıq fakültəsi”, “Auditoriya+”, “Docento discimus” layihələri üzrə elmi seminarlar, “dəyirmi masa”lar, bilik, əl işləri, inşa yazı müsabiqələri və kitab təqdimatları keçirilir.

Bilik Fondunda ölkə Prezidenti İlham Əliyevin çox böyük əhəmiyyətə malik olan “Ölkəmizi tanıyaq” layihəsindən doğan və onun davamı olan “Qardaşlaşmış məktəblər” layihəsi həyata keçirilir. Bu layihə nəticəsində müxtəlif regionlardan və paytaxtdan olan məktəblilər digər regionlarımızda fəaliyyət göstərən məktəblərlə qardaşlaşır, onlarla bir yerdə müxtəlif tədbirlər keçirir, Azərbaycanın təbiəti, insanları ilə daha yaxından tanış olur və bununla ölkəmizdəki tolerant və multikultural mühitin daha da dərinləşməsinə xidmət edirlər. Bu il “Qardaşlaşmış məktəblər” layihəsi öz humanist ideyası ilə ölkə xaricinə çıxdı və 2016-cı ilin fevral ayında Moskva və Ankara məktəblilərini Bakıda qardaşlaşdırdı. Xatirinizdədirsə, bu zamanlar Türkiyə və Rusiya arasında münasibətlər məlum səbəbə görə ən gərgin həddə çatmışdı. Belə bir zamanda türkiyəli və rusiyalı məktəblilərin öz direktorları və müəllimləri ilə Bakıya gəlməsi və bir-birinə qardaşlıq əli uzatması bir qəhrəmanlıq idi. Bakı da sülhün və qardaşlığın ünvanı kimi öz ağuşunu onlara məhəbbətlə açdı. Zaman göstərdi ki, biz doğru yoldayıq. O məktəblilər arasında layihənin xeyirxah və qardaşlıq missiyası bu gün də davam etməkdədir. Bu maraqlı layihəyə qoşulmaq istəyən onlarla yerli və xarici məktəblər var.

**- Sədri olduğunuz Azərbaycan Yaradıcılıq Fondunun fəaliyyəti barədə nə deyə bilərsiniz?**

- Azərbaycan Yaradıcılıq Fondu 1987-ci ildə Sovet Mədəniyyət Fondunun adı ilə təsis edilib və 1992-ci ildən 2008-ci ilə qədər Azərbaycan Mədəniyyət Fondu adı altında fəaliyyət göstərib. 2008-ci ildən Azərbaycan Yaradıcılıq Fondu adlanır. Hazırda bu Fond səhnədən getmiş sənətkarlarla yanaşı, gənc istedadların da mütəmadi toplaşdığı məkana çevrilib. Fondun ətrafında artıq ədəbi bir cameə formalaşmaqdadır. Tarixi irsimizin, maddi-mənəvi dəyərlərimizin gənclərə daha dolğun çatdırılması üçün Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə birgə “Qafqaz Albaniyasına səyahət” layihəsi də hazırda icra olunmaqdadır. Layihə əsasən gənc nəslin maarifləndirilməsinə yönəlib. Bu çərçivədə Qafqaz Albaniyası dövrünə aid dini məbədlərə ekskursiyalar təşkil olunub, eyni adlı sənədli film çəkilib. Bundan başqa, Azərbaycan Yaradıcılıq Fondu və Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin birgə həyata keçirdiyi “Quran motivləri əsasında hekayələr” müsabiqəsi təşkil edilib. Qaliblərə pul mükafatları, diplomlar və qiymətli hədiyyələr təqdim olunub. Azərbaycan Yaradıcılıq Fondu və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi həmin layihənin davamı olaraq “Dini motivlər əsasında şeirlər” müsabiqəsi elan edib. Müsabiqəyə artıq 70-ə qədər əsər təqdim edilib, yaxın günlərdə müsabiqənin yekun mərasimi keçiriləcək. Fond hazırda Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının köməyi ilə “Sönməyən ulduzlar” adlı mənəvi və sosial yardım layihəsini həyata keçirir. Yaradıcılıq Fondunun sim-sim.az saytı artıq bir ildir ki, fəaliyyət göstərir, saytın fəaliyyəti nüfuzlu mədəniyyət və ədəbiyyat xadimləri tərəfindən rəğbətlə qarşılanır. Xüsusilə qeyd edilməlidir ki, bu ilin iyun ayında Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycan Milli Elmlər Akademiyası və Azərbaycan Yaradıcılıq Fondunun birgə nəşri olan “Multikulturalizm” Beynəlxalq jurnalı işıq üzü görüb. Jurnalın nəşr olunmasında məqsəd Azərbaycanda əsrlərdən bəri formalaşmış tolerantlıq ənənələrini təbliğ etmək, ölkəmizdə hökm sürən multikultural mühitə yeni impulslar töhfə verməkdir.

Dindarlar məscidə ancaq namaz qılmağa və moizəyə qulaq asmağa gəlməməlidirlər. Məscid bu gün ancaq məscid yox, həm də mənəviyyat, tərbiyə və maarif mərkəzi olmalıdır. Təbii ki, belə məscidin axundu və imamı insanların maariflənməsi yolundakı ehtiyaclarını adekvat şəkildə ödəməlidir. O, daim özünü elmi baxımdan təkmilləşdirməlidir.

# Mübariz Qurbanlı: Dünyada aparıcı güclər din amilindən geosiyasi maraqları üçün istifadə edirlər




## Ağsu rayonunda regional konfrans keçirilib



Sentyabrın 28-də Ağsuda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və rayon icra hakimiyyətinin birgə təşkilatçılığı ilə "Multikultural və tolerant dəyərlərimiz: tarixilik, varislik, müasirlik" mövzusunda regional konfrans keçirilib.

Konfransda dini işlər üzrə komissiyanın üzvləri, dini icma sədrləri, din xadimləri, idarə, müəssisə və təşkilat rəhbərləri, ictimaiyyət nümayəndələri, o cümlədən ağsaqqallar və gənclər iştirak ediblər.

Konfrans DQİDK-nın sifarişi ilə çəkilən, dini ekstremizm və radikalizmin fəsadlarından bəhs edən "Fitnə" sənədli filminin nümayişi ilə başlayıb.

Rayon icra hakimiyyətinin başçısı Ənvər Seyidəliyev konfransı açaraq, ölkəmizdə dövlət-din münasibətlərinin yüksələn xətt üzrə inkişafı üçün hər cür şəraitin yaradıldığını, Azərbaycanın tolerantlıq mərkəzi kimi tanındığını bildirib. İcra hakimiyyətinin başçısı, eləcə də Milli Məclisin deputatı Tahir Kərimli, Qafqaz Müsəlmanları İdarəsinin səlahiyyətli nümayəndəsi Nurəddin İslamov və başqaları vurğulayıblar ki, Azərbaycanda tarixən müxtəlif millətlərin nümayəndələri birgə yaşayıb, bir-birinin dilinə, dininə, adət-ənənələrinə hörmətlə yanaşıblar. Ölkəmizdə dini və etnik mənsubiyyətindən asılı olmayaraq hər kəsin fəaliyyəti Azərbaycan Respublikasının qanunları ilə tənzimlənir. Həyata keçirilən uğurlu siyasət nəticəsində müxtəlif dinlərə etiqad edən insanlar mehriban və qarşılıqlı hörmət şəraitində yaşayırlar. Respublikamız dünyada tolerantlıq və multikulturalizm nümunəsinə çevrilib.

Konfransda çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Azərbaycanda dövlət-din münasibətlərinin əsasının Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulduğunu diqqətə çatdırıb. Vurğulayıb ki, bu gün həmin münasibətlər bütün hüquqi dövlətlərdə olduğu kimi, Azərbaycanda da qanunlarla tənzimlənir.

Qeyd olunub ki, ölkə əhalisinin böyük əksəriyyəti İslam dininə etiqad etsə də, Azərbaycan hüquqi, dünyəvi, unitar dövlətdir, dünyada tolerant ölkə kimi tanınır və tolerantlıq bizim həyat tərzimizdir.

Dövlət Komitəsinin sədri diqqəti din pərdəsi altında aparılan münaqişələrə çəkərək bildirib ki, dünyada aparıcı güclər din amilindən geosiyasi maraqları üçün istifadə edir, İslamı siyasiləşdirərək qarşıdurma yaratmaqla onu gözdən salmağa yönələn siyasət həyata keçirirlər. Din amilindən siyasi vasitə kimi istifadə olunduğu bir dövrdə Azərbaycan dünyaya qlobal təhlükəsizlik məsələlərində töhfə verən bir ölkəyə çevrilib.

Konfransda təhlükəli dini cərəyanlar, onların fəaliyyət metodları barədə ətraflı məlumat verilib, hər kəsin diqqətli olmasının zəruriliyi bildirilib.

Sonda iştirakçıları maraqlandıran məsələlərə aydınlıq gətirilib.

## Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ağsuda vətəndaşları qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə müvafiq olaraq mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu davam etdirir, müraciətlərin, ərizə və şikayətlərin qanunauyğun, operativ həlli üçün konkret tədbirlər görürlər.

Vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı sentyabrın 28-də Ağsu şəhərində Ağsu, Şamaxı və İsmayıllı rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və rayon icra hakimiyyətinin başçısı Ənvər Seyidəliyev Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül-çiçək qoyublar.

Uşaq-Gənclər Bədii Yaradıcılıq Mərkəzində keçirilən qəbulda 20 vətəndaşın müraciətinə baxılıb. Müraciətlər əsasən dini icmaların dövlət qeydiyyatı, dini icmaların fəaliyyəti, dini maarifləndirmə ilə əlaqədar bu icmalara vəsaitlərin ayrılması, dini ədəbiyyatla təmin olunma, Quran kurslarının təşkili, məscidlərin təmiri və sair məsələlərlə bağlı olub.

Vətəndaşlar Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı tərəfindən diqqətlə dinlənilib. Bir çox müraciətlər yerindəcə həll olunub. Araşdırılmasına ehtiyac olan məsələlər isə qeydiyyata alınıb və onların həlli üçün konkret tapşırıqlar verilib. Komitənin səlahiyyətlərinə aid olmayan müraciətlər isə aidiyyəti orqanlara çatdırılmaq üçün nəzarətə götürülüb.

Vətəndaşlar rayonlarda bu cür qəbulların keçirilməsinin təşəbbüskarı olan Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.



## "Heç kim məscidi siyasət meydanına çevirə bilməz"

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bildirib ki, Azərbaycanda bəzi şəxslər dindən istifadə edib aranı qarışdırmağa cəhd göstərirlər. Onun sözlərinə görə, həmin şəxslər ölkədə mühüm kampaniyalar zamanı aktivləşməyə cəhd etsələr də, mümkün olmayıb: "Biz daim dövlətimiz və dövlətçiliyimiz üçün çalışmışıq və aranı qarışdırmaq istəyənlərə qarşı mübarizə aparırıq. Heç kim məscidi siyasət meydanına çevirə bilməz. Buna imkan verməyəcəyik. Məscidlər namaz qılmaq, Allaha ibadət etmək üçündür".

## Referendumun nəticələri açıqlanıb

*(əvvəli 1-ci səhifədə)*

Sonra MSK sədri daxil olan məlumatlara əsasən ilkin rəqəmləri diqqətə çatdırıb.

Məzahir Pənahov bildirib ki, Mərkəzi Seçki Komissiyası artıq rəsmi protokolların qəbul edilməsi ilə məşğul olacaq. Seçki Məcəlləsinin tələbinə görə, iki gün müddətində bütün dairə seçki komissiyalarının protokolları Mərkəzi Seçki Komissiyasına çatdırılmalıdır. Ondan sonra dairə seçki komissiyalarının protokolları əsasında ilkin nəticələr MSK-nın saytında yerləşdiriləcək. Həmin məlumatlar artıq protokollar əsasında olan ilkin nəticələr olacaq. Sonra bütün sənədlər diqqətlə araşdırılacaq, əgər hər hansı müraciət daxil olarsa, o müraciətlər araşdırılacaq, onlara uyğun qərarlar çıxarılacaq. Seçki Məcəlləsinin tələbinə uyğun olaraq ən geci 25 gün müddətində Mərkəzi Seçki Komissiyası bu proseslərə yekun vuracaq. Əgər MSK-ya heç bir müraciət daxil olmasa, dairə seçki komissiyalarından daxil olmuş sənədlər araşdırılıb başa çatdırılandan sonra Komissiya nəticələrin rəsmi təsdiq olunması ilə bağlı iclasın nə vaxt çağırılması barədə qərar qəbul edəcək.

Ümumxalq səsverməsinin çox yüksək səviyyədə keçirildiyini bir daha vurğulayan M.Pənahov indiyədək MSK-ya hər hansı şikayətin daxil olmadığını diqqətə çatdırıb.

# Dövlət Komitəsində görüşlər



**Sentyabrın 1-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı İsveçdə fəaliyyət göstərən "Həyat sözü" beynəlxalq kilsəsinin direktoru Kristian Okerhelmi və "Həyat sözü" cəmiyyətinin MDB ölkələri və beynəlxalq xidməti üzrə nümayəndəsi Karl Qustav Severini qəbul edib.**

Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı qonaqları salamlayaraq Azərbaycanın tarixən müxtəlif konfessiyaların, xalqların, eləcə də ayrı-ayrı etiqad və inanclara malik etnosların sülh və əmin-amanlıq şəraitində birgə yaşadığı ölkə olduğunu bildirib.

O, cari ilin aprel ayında İsveçə səfərini və keçirdiyi görüşləri xatırladaraq bu görüşlərin əlaqələrin inkişafı baxımından əhəmiyyətli olduğunu vurğulayıb.

Qonaqlar Azərbaycandakı tolerantlıq və dinlərarası münasibətləri, ölkəmizin ötən illər ərzində bütün sahələrdə çox böyük inkişaf yolu keçdiyini xüsusi qeyd ediblər.

* * *

**Sentyabrın 5-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı İranın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Möhsün Pakayin ilə fəaliyyətinin başa çatması ilə əlaqədar görüşüb.**

Komitə sədri Azərbaycanla İran arasında tarixən mövcud olan qardaşlıq münasibətlərindən bəhs edərək, əlaqələrin inkişafında Ulu Öndər Heydər Əliyevin xüsusi rolunun olduğunu, hazırda bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini deyib. Fəaliyyəti dövründə İran İslam Respublikasına iki dəfə səfər etdiyini deyən Komitə sədri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məsələlərdə İranın daima ölkəmizin haqlı mövqeyini dəstəklədiyini vurğulayıb.

Dövlət Komitəsinin fəaliyyətindən danışan Mübariz Qurbanlı İslam dininin sülh dini olduğunu, buna baxmayaraq, dini ləkələməyə çalışan bəzi radikal qrupların mövcudluğunu da diqqətə çatdırıb. O bildirib ki, bu cür qruplara qarşı mübarizədə Dövlət Komitəsi QMİ və bir sıra dövlət qurumları ilə əməkdaşlıq edir.



Azərbaycanda dövlət-din münasibətlərinin mükəmməl formada qurulduğunu, məzhəblər arasında ayrı-seçkiliyin olmadığını deyən Möhsün Pakayin ölkəmizin dünyaya tolerantlıq nümunəsi sərgilədiyini diqqətə çatdırıb. Səfir iki ölkə arasında bütün sahələrdə olduğu kimi, din sahəsində də əlaqələrin yüksək səviyyədə qurulmasından məmnunluğunu bildirib və bu əlaqələrin inkişafında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin fəaliyyətini xüsusi vurğulayıb.

* * *

**Sentyabrın 8-də DQİDK-nın sədri Mübariz Qurbanlı İsveçrə Yəhudi İcmaları Federasiyasının prezidenti Herbert Vinterin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Komitə sədri qonaqlara Dövlət Komitəsinin fəaliyyəti barədə ətraflı məlumat verərək bildirib ki, bu gün Azərbaycanda tolerantlığın mühüm elementlərindən biri onun qorunmasının dövlət siyasətinə çevrilməsidir.



Yəhudilərin Azərbaycanda 2500 il bundan əvvəl məskunlaşdığını, öz adət-ənənələrini qoruyub saxladıqlarını deyən Mübariz Qurbanlı bu icmanın Azərbaycanın ictimai-siyasi həyatında yaxından iştirak etdiyini qeyd edib.

İsveçrə Yəhudi İcmaları Federasiyasının prezidenti Herbert Vinter Azərbaycanın multikulturalizm məsələlərinə böyük önəm verən çox az sayda ölkələrdən biri olduğunu vurğulayıb. Ölkəmizdəki dövlət-din münasibətlərini, tolerantlıq ənənələrini, yəhudi icmasına göstərilən yüksək diqqət və qayğını xüsusi vurğulayan qonaq, bunun bütün dünya üçün nümunə ola biləcəyini bildirib.

* * *

**Sentyabrın 14-də Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı "Yehovanın şahidləri" Avropa Assosiasiyasının sədri Toni Breys və qurumun nümayəndəsi Mariyano Makiyas Quzmanı qəbul edib.**

Dövlət Komitəsinin fəaliyyəti barədə qonaqlara ətraflı məlumat verən Mübariz Qurbanlı ölkəmizdə vicdan və dini etiqad azadlığının təmin edilməsinə, dinlərarası ünsiyyət körpüsünün yaradılmasına, hər kəsin etiqad etdiyi dinə ehtiramla yanaşılmasına, dini dözümlülüyə və tolerantlığa hörmət göstərilməsinə, dini konfessiyalar arasında əməkdaşlığın genişləndirilməsinə xüsusi diqqət yetirildiyini bildirib. Mübariz Qurbanlı Azərbaycanda zərərli dini ideyalar yaymayan, dinlərarası münasibətlərə xələl gətirəcək formada fəaliyyət göstərməyən bütün dini qurumlara tam şərait yaradıldığını, "Yehovanın şahidləri"nin də Azərbaycanda icmasının olduğunu, lakin yenidən dövlət qeydiyyatından keçmədiyini onların diqqətinə çatdırıb.



Görüş zamanı qonaqlar Assosiasiyanın fəaliyyəti ilə bağlı məlumat veriblər. Bildiriblər ki, Assosiasiya Avropa məkanında geniş fəaliyyət göstərir.

* * *

**Sentyabrın 19-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Türkiyə Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri İsmail Alper Coşkun ilə fəaliyyətinin başa çatması ilə əlaqədar görüşüb.**

Azərbaycanla Türkiyə arasında əlaqələrin yüksək səviyyədə olmasına diqqət çəkən Mübariz Qurbanlı bildirib ki, bütün sahələrdə olduğu kimi, din sahəsində də iki qardaş ölkə arasında əlaqələr yüksələn xətlə inkişaf edir. Komitə sədri Türkiyənin daim Azərbaycanın yanında olduğunu, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məsələlərdə ölkəmizin haqlı mövqeyini daima dəstəklədiyini vurğulayıb.

İsmail Alper Coşkun Azərbaycanla Türkiyə arasında qardaşlıq münasibətlərindən, bu əlaqələrin sağlam və davamlı inkişafından danışıb. Dövlətimizin başçısının din sahəsində həyata keçirdiyi siyasəti müsbət qiymətləndirən səfir Azərbaycanın yüksək səviyyəli tolerantlıq mühiti ilə seçildiyini bildirib. O vurğulayıb ki, Azərbaycanda insanların milli-mənəvi dəyərlərə bağlılığı, ölkəmizdə dini etiqad azadlığının təmin edilməsi, dövlət-din münasibətlərinin yüksək səviyyədə olması təqdirəlayiqdir.



Görüşdə Türkiyə-Azərbaycan arasında tarix boyu formalaşmış qardaşlıq münasibətlərinin daha da möhkəmləndirilməsi, bütövlükdə türk-islam dünyasının mədəni-mənəvi vəhdətinin qorunub-saxlanılması və daha da inkişaf etdirilməsi yolunda iki ölkənin səylərinin gücləndirilməsinin vacibliyi vurğulanıb.

Dövlət Komitəsinin sədri ölkələrimiz arasında ikitərəfli əlaqələrin müxtəlif istiqamətlərdə, xüsusən din sahəsində genişləndirilməsi işinə verdiyi töhfəni yüksək qiymətləndirərək səfirə gələcək fəaliyyətində uğurlar arzulayıb.

* * *

**Sentyabrın 23-də DQİDK-nın sədri Mübariz Qurbanlı Almaniya Federativ Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Mixael Kindsqrabı qəbul edib.**

Komitə sədri səfirə fəaliyyətində uğurlar arzulayaraq onun Azərbaycan-Almaniya arasında münasibətlərin inkişafına töhfə verəcəyinə ümidvar olduğunu bildirib.

Ölkəmizdəki mövcud dövlət-din münasibətlərindən bəhs edən Mübariz Qurbanlı Dövlət Komitəsinin fəaliyyət istiqamətləri barədə geniş məlumat verib. O, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan dövlət-din siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdırıb. Komitə sədri deyib ki, bir-birinin milli dəyərlərinə qarşılıqlı hörmət və ehtiram Azərbaycan və alman xalqlarının mədəni əlaqələrini səciyyələndirən başlıca cəhətdir. Vaxtilə almanların Azərbaycanın daha çox Şəmkir və Göygöl rayonlarında məskunlaşdıqlarını, ölkəmizdə alman lüteran kilsələrinin indiyədək qorunub-saxlandığını deyən Komitə sədri 2017-ci ildə Cənubi Qafqaz regionunda alman məskənlərinin salınmasının 200 illiyinin tamam olduğunu və Prezident İlham Əliyev tərəfindən bununla bağlı Sərəncam imzaladığını da səfirin diqqətinə çatdırıb.



Səfir son illər Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun daha da artdığını, ölkəmizdə dövlət-din, konfessiyalararası münasibətlərin yüksək səviyyədə inkişaf etdiyini, nümunəvi multikultural və tolerant mühitin mövcud olduğunu bildirib. Mixael Kindsqrab ikitərəfli əlaqələrimizin inkişaf etdirilməsi məsələsində Almaniyanın da maraqlı olduğunu önə çəkib, Azərbaycan multikulturalizm və tolerantlıq təcrübəsinin öyrənilməsi sahəsində əməkdaşlıq etmək istədiyini deyib.



# Mübariz Qurbanlı: “Azərbaycanda nurçulara, FETÖ-çülərə məxsus məscid olmayıb”

**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı sentyabrın 8-də APA-ya müsahibə verib. Komitə sədri müsahibəyə ölkədə dini durumu qiymətləndirməklə başlayıb.**

- Azərbaycanda ictimai-siyasi, iqtisadi sabitlik hökm sürür, o cümlədən dini sahədə də sabit mühit var. Müsəlman ölkələr içərisində dini nöqteyi-nəzərdən ən sabit ölkələrdən biri Azərbaycan hesab olunur. Azərbaycan konfessiyalararası və məzhəblərarası münasibətlər baxımından da nümunəvi ölkədir.

**- Regionda məzhəblərarası radikalizm meyilləri səngimir. Bunun əlamətlərindən Azərbaycanda da olduğu arasıra eşidilir. Bir vaxtlar Suriyaya din uğrunda döyüşə gedən azərbaycanlıların aktivliyi, hətta ölkədə onlara mənəvi dəstək verən məscidlər də gündəmdə idi. Bu sahədə vəziyyət necədir?**

- Zamanında Suriyaya, digər ölkələrdən olduğu kimi, Azərbaycandan da gedənlər olub. Amma onların hamısı təkcə din uğrunda döyüş düşüncəsi ilə gedənlər deyildi. Maddi maraq naminə gedənlər də çox idi. Onların bir qismi sonradan geri qayıdıb, bir qismi isə həlak olub. Bundan başqa, yeniyetməlikdən gəncliyə keçən yaş dövründəki macəra axtaran gənclərimiz də gedib.

Çox az hissəsi isə cihad adı ilə döyüşməyə gedib ki, onlar da təsir altına düşənlərdir. Onlar anlamayıblar ki, Suriyadakı döyüşlərin dinə, azərbaycanlılara heç bir aidiyyəti yoxdur və bu, sadəcə geosiyasi maraqların toqquşmasıdır. Bizim üçün cihad yeri Ermənistan tərəfindən işğal olunmuş torpaqlarımızdır, Qarabağdır. Bununla bağlı xeyli maarifləndirici iş gördük, hazırda tədbirlər davam edir. “Fitnə” adlı sənədli filmimiz var ki, orada Suriyaya döyüşməyə gedən, sonradan peşman olub qayıdanların və Azərbaycan qanunvericiliyi ilə məsuliyyətə cəlb edilənlərin peşmanlığı göstərilir. Bunlara əsasən deyə bilərəm ki, təqribən son bir ildə Azərbaycandan Suriyaya və digər yerlərə silahlı birləşmələrdə döyüşməyə gedən bir nəfər də yoxdur. Vaxtı ilə gedənlərin arasında peşmanlıq çəkib qayıdanların sayı isə çoxdur.

**- Neçə nəfər gedib və neçəsi qayıdıb? Statistika necədir?**

- Qapalı məlumat olduğu üçün bu rəqəmlər açıqlanmır. Amma səmimi deyirəm ki, Azərbaycandan gedənlər digər ölkələrdən gedənlərlə müqayisədə olduqca azdır. Onların tam əksəriyyəti, dediyim kimi, peşmanlıq hissi ilə qayıdıb. Əsas odur ki, artıq Azərbaycandan Suriyaya döyüşməyə gedən yoxdur. Bu, aparılan profilaktik tədbirlər sayəsində baş tutur.

Azərbaycandan Suriyaya döyüşməyə gedənlərə mənəvi dəstək verənlər də artıq zərərsizləşdirilib, fəaliyyətlərinin qarşısı alınıb. Bakının mərkəzində, Qaradağ rayonunda, şimal, şimal-qərb və mərkəzi bölgələrimizdə bəzi məscidlər vardı ki, Suriyaya gedənləri ilhamlandırırdı. Onlar üzərində də artıq tam nəzarət bərpa olunub. Artıq ölkədə silahlı birləşmələrə sövq edən, bu yöndə təbliğat aparan məscid qalmayıb.

Azərbaycanda hansısa formada qeyri-qanuni fəaliyyət göstərərək məzhəblərarası təfriqə salmaq istəyən məscidlərdə də bu sahədə iş aparılır. İstədiyimizə müəyyən mənada nail olmuşuq. Qafqaz Müsəlmanları İdarəsi (QMİ) Azərbaycanda fəaliyyət göstərən məscidlərin xeyli hissəsinə imam və axundlar təyin edib.

Azərbaycanda 2166 məscidin olması o demək deyil ki, onların hamısı hər gün fəaliyyətdədir. Məscidlər iki cür fəaliyyət göstərir. Bir qismi vaxt namazlarında açıq olan məscidlərdir ki, daimi fəaliyyətdədir. Digər qismi isə yalnız cümə namazlarına, bayram namazlarına açıqdır. Həmin məscidlərin sadəcə cümə günləri və bayramlarda fəaliyyət göstərməsinə səbəb odur ki, yaxınlıqda yaşayan müsəlmanlar məsciddə deyil, vaxt namazların evlərində qılmağa üstünlük verirlər. Yəni məscidə gəlmirlər. Bu cür məscidlərə də QMİ əməli-mövt, yəni dini ayinlərin icraçısını təyin edib. Qanuna görə, məscidin minbərindən ora təyinatı olmayan şəxs istifadə edə bilməz.

Hansı məsciddə ki, dini icma qeydiyyatdan keçməyib, yaxud QMİ tərəfindən axund və ya imam təyinatı olmayıb, həmin məscidlərin fəaliyyətinə nəzarət edilir. Bəzi məscidlərin fəaliyyəti isə qanunun tələblərinə cavab vermədiyi üçün müvəqqəti olaraq dayandırılıb.

**- Bu, hansı məscidlərdir?**

- Ölkə üzrə bir neçə belə məscid var. Bunlardan biri Bakıdakı məlum “Aşur” məscididir. Oranın fəaliyyəti niyə dayandırıldı? Əvvəla, ora Nazirlər Kabineti yanında İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruğunun balansındadır. Qoruq da balansında olan məscidlərin restavrasiyasını həyata keçirir. “Aşur” məscidinin böyük tutumu yox idi, oraya qeyri-qanuni yığışırdılar. Nazirlər Kabineti yanında İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruğu da qanunamüvafiq qaydada qeyri-qanuni olan yerin fəaliyyətini dayandırıb restavrasiya işləri aparır. Bərpa işi qurtardıqdan sonra qərara gələnəcək ki, orada hansı fəaliyyət davam etdirilsin. Təbii ki, orada dini fəaliyyət olacaq, amma qanuni şəkildə. Ələt və Qobustan məscidlərinin də fəaliyyətini qeyri-qanuni olduğu üçün dayandırmışıq. Digər bu kimi məscidlər ölkənin şimal və Mərkəzi Aran bölgələrindədir. Bu məscidlər qeyri-qanuni fəaliyyət göstərirdi və aralarında həm sünni, həm də şiə məzhəbinə mənsub vətəndaşların toplu halda ibadət etdikləri məscid var. Bunların fəaliyyəti qanuniləşdirildikdən sonra bərpa ediləcək. Dini icma qeydiyyatdan keçməlidir, QMİ tərəfindən din xadimi təyin olunmalıdır.

Azərbaycanda məscid tikmək üçün əvvəlcə yerli icra hakimiyyətindən icazə alınmalıdır, sonra o sənədlər Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə gəlməlidir və Komitə dini ibadət yerinin tikintisinin məqsədəuyğunluğu barədə rəy verməlidir. Bütün bunlardan sonra məscid inşa oluna bilər. Məscid tikildikdən sonra bələdiyyənin balansına verilir. Bələdiyyə isə onun idarəçiliyini əvəzsiz olaraq QMİ-yə verməlidir. Bundan sonra QMİ axund və ya imam təyin edir. Orada dini icma yaradılır və məscid fəaliyyətə başlayır. İcma da ona görə yaradılır ki, məscidə himayədarlıq etsin.

Məscidlərin əksəriyyətində vebkameralar quraşdırılıb. Bu gün məscidlərimizdə çox savadlı din xadimləri və xütbə söyləyənlər var. Məqsədimiz odur ki, xütbələri daha çox vətəndaşımızın dinləməsinə şərait yaradılsın. Vətəndaşlarımız həmin xütbələrdə İslamda şəhidliyin, halal və ya haramın nə demək olduğunu öyrənsinlər. Yaxud milli bayramlarımıza, vətənpərvərlik mövzularına həsr edilmiş xütbələr daha çox insana çatsın.

**- Azərbaycanda da dini radikal cərəyan olaraq FETÖ-çülərə (Fətullah Terror Təşkilatı) qarşı mübarizə aparılır və bu cərəyana mənsub olmaqda şübhəli bilinən bir sıra şəxslər artıq saxlanılıb. Qafqaz Universiteti ilə bağlı müəyyən tədbirlər görülüb. Bəs Sizin rəhbərlik etdiyiniz Komitə FETÖ, xüsusilə onun müəllifi olduğu dini ədəbiyyatlarla bağlı hansı tədbirləri görüb?**

- Dini radikal cərəyan o deməkdir ki, kimsə din adı altında özünün siyasi, iqtisadi və digər məqsədlərinə nail olmaq istəyir. Dini təhrif etməyə, məqsədlərinə uyğunlaşdırmağa çalışırlar. Belə cərəyanlar bütün dinlərdə var. FETÖ də belə cərəyanlardandır. Onların dinə aidiyyəti yalnız zahiridir, fəaliyyəti siyasiləşib. Bunlar bir təşkilatdır. Amma dini deyil, siyasi təşkilatdır.

Fətullah Gülənin yaratdığı təşkilat dinlə pərdələnib. Azərbaycan müstəqilliyini elan edəndə dünyəvi dövlət olduğunu bildirib. Bizdə din dövlətdən ayrıdır. Amma müstəqilliyin ilk illərində müəyyən iqtisadi çətinliyimizdən, hələ yeni yaranmağımızdan istifadə edərək müəyyən cərəyanlar ölkəyə ayaq açdı. FETÖ də bu cərəyanlardandır. Onlar Azərbaycana ilk olaraq, təhsil sahəsində ayaq açdılar. Məktəblər, o cümlədən Qafqaz Universitetini yaratdılar. Düşünmək lazım deyil ki, orda təhsil alanların hamısı FETÖ-nün təsiri altına düşüb, onun daşıyıcılarıdır. Burada çox yaxşı formada təhsil alıb Azərbaycanın idarəçiliyində fəaliyyət göstərən vətəndaşlarımız var. Sovet sistemindən qalma təhsillə müqayisədə daha yaxşı təhsil verdikləri üçün rahat fəaliyyət göstərə bildilər. Amma sonradan Azərbaycan inkişaf edib öz məsələlərini həll etdikcə həm vəhhabiliyin, həm də nurçuların bura ayaq açmasının qarşısını aldı.

*Çox yaxşı olardı ki, tanınmışlar, vəzifəli şəxslər nümunə göstərsinlər. Nümunə göstərənlərimiz də var. Yas mərasimləri getdikcə adət-ənənə halını alıb, ona görə də bunu elə yeni nümunəvi adətlərlə həll etmək olar. Bizim Komitənin əməkdaşları da mütəmadi tənqid edir, təbliğat aparır.*

⇨ 9

# Mübariz Qurbanlı: “Azərbaycanda nurçulara, FETÖ-çülərə məxsus məscid olmayıb”

⇦8

“Dini etiqad azadlığı haqqında” Qanuna 2009-cu ildə düzəlişlər edildi. Həmin dövrədək xaricdən gələn müxtəlif din xadimləri moizələr oxuyurdular, dini ayinləri icra edirdilər. Dövlət də bunun qarşısını aldı. FETÖ-çülük bu çərçivədə Azərbaycanda artıq ideoloji sahədə təhlükə kimi göründüyündən dövlət bunun da qarşısını almaq üçün addımlar atmağa başladı. 2009-cu ildən başlayaraq, Fətullah Gülənə və nurçulara məxsus hansısa ədəbiyyatın Azərbaycana gətirilməsi, yayılması məqsədəuyğun sayılmadı. Burada söhbət ideoloji kitablardan gedir. Bura kitablarla yanaşı, audio və video materiallar da aiddir. 2009-dan etibarən Fətullah Gülənin fikirlərini yayan bütün nəşrlərin, materialların, o cümlədən “Risaleyi-Nur” kitabının Azərbaycana kütləvi gətirilməsi, yayılması dayandırılıb.

**- Onlara məxsus və yaxud onların fikirlərini dəstəkləyən məscid varmı?**

- Azərbaycanda nurçulara, yaxud FETÖ-çülərə məxsus məscid olmayıb. Daha doğrusu, burada məscidləri nəzarətə ala bilmədilər. Qafqaz Universiteti içərisində məscidləri olub, amma orada FETÖ təbliğatının getməsini müşahidə etməmişik. Yalnız ədəbiyyatlar aşkarlamışıq və dediyim kimi, onların da ölkədə yayılmasını dayandırmışıq. Bunlar müxtəlif adda kitablardır. Bu günlərdə də Baş Prokurorluğun müxalifətin bir qanadına məxsus şəxslərdən götürdüyü bu cərəyana məxsus kitablar, disklər Komitənin Dinşünaslıq ekspertizası şöbəsində araşdırılıb və rəyimizi vermişik: onların yayılması, gətirilməsi qadağandır.

**- Mediada rəhbərlik etdiyiniz Komitədə də Fətullah Gülənlə əlaqəli şəxslərin olduğu barədə iddialar səslənir. Bu barədə nə deyə bilərsiniz?**

- Komitədə çalışanlar arasında FETÖ-ylə bağlı şəxslərin olması barədə məndə məlumat yoxdur. Mənim çalışdığım 2 ildə işçilər arasında Fətullah Gülənə bağlı şəxs müşahidə etməmişəm. Görməmişəm ki, kimsə fəaliyyətində bunu qabartsın. Amma gələcəkdə belə bir şəxs bizim Komitədə aşkarlansa, təbii ki, dərhal tədbir görəcəyik.

**- Radikal dini qruplardan birinə rəhbərlik edən Taleh Bağırzadə və onun tərəfdarlarının məhkəməsi gedir. Mətbuatda onların məhkəmə çıxışlarına rast gəlirik. Bu barədə nə deyə bilərsiniz?**

- Bu iş hüquq-mühafizə orqanlarının, məhkəmənin işidir və biz prosesə müdaxilə edə bilmərik. Məhkəmə mətbuata açıq formada keçirilir. Onların səsləndirdikləri müxtəlif iddialarla bağlı məhkəmə qərar verəcək.

Onların Nardarandakı əməlləri hamının gözü qarşısında baş verib. Nardaran əməliyyatından əvvəl də onlar daim qeyri-qanuni çağırışlar edib, toplantılar keçiriblər. Youtube-da onların çağırışları indi də qalmaqdadır. Nardaranda əməliyyat keçirilən gün onların orada toplaşmaları və dini ayin adı altında keçirdikləri görüşlər qeyri-qanuni idi. Onlar dini siyasi alətə çevirən radikallaşmış elementlərdir. Komitə onların çıxışlarında, çağırışlarında din adı altında qeyri-qanuni fikirləri aşkarladı və bununla bağlı rəyimizi verdik. Nardaranda da hüquq-mühafizə orqanlarının keçirdiyi əməliyyat tamamilə qanunauyğun idi. Çünki onların “dini ayinlər”ində daha çox dövlətimizin əsaslarına qarşı yönələn çağırışlar yer alırdı.

**- Bir vaxtlar təmtəraqlı yas mərasimləri ilə bağlı maraqlı kampaniya vardı və Komitənin fəallığı ilə də mərasimlərdə israfçılığın qarşısı xeyli alınmışdı. Amma son vaxtlar yenidən təmtəraqlı yas mərasimlərinə rast gəlirik. Bəzən Komitənin əməkdaşlarının bu məsələ ilə bağlı tənqidi çıxışları olur. Bu problemin həllinə əngəl olan nədir?**

- Bir var qadağa, bir də var insanların özlərinin məsələni dərk etməsi. Bu, sırf adət-ənənəyə bağlı olan məsələdir və bunu necə qadağan etmək olar? Kiminsə məclisini təmtəraqlı olduğuna görə necə dağıtmaq olar? Çox yaxşı olardı ki, tanınmışlar, vəzifəli şəxslər nümunə göstərsinlər. Nümunə göstərənlərimiz də var. Yas mərasimləri getdikcə adət-ənənə halını alıb, ona görə də bunu elə yeni nümunəvi adətlərlə həll etmək olar. Bizim Komitənin əməkdaşları da mütəmadi tənqid edir, təbliğat aparır. Dövlət bu məsələdə tövsiyə verə bilər. QMİ də fətva verdi və israfçılığı pislədi. Amma vətəndaşı bundan artıq məcbur eləmək mümkündür? Yas məclislərinin birində mərasimləri təşkil edən əməkdaşla söhbətim oldu. Ondan bu vəziyyəti soruşduqda dedi ki, sifariş əsasında iş görürlər: “Necə sifariş edirlərsə, elə təşkil edirik. Biz əvvəlcə çay süfrəsi təklif edirik, ancaq şəxs təkid etdikdə bir növ yemək veririk”.

Amma onu da deyim ki, ümumilikdə əvvəlki illərlə müqayisədə təmtəraqlı məclislər elə də çox deyil.

**- Məzarlıqlarla bağlı məsələ də açıq qalıb. Bu barədə qanun və ya qərar layihəsinin hazırlandığı bildirilsə də, nəticə yoxdur...**

- Bununla bağlı qərar layihəsinə Prezident Administrasiyasının müvafiq şöbəsi, İqtisadiyyat Nazirliyi, o cümlədən bizim Komitə rəy verərək Nazirlər Kabinetinə göndərib. Nazirlər Kabinetində də Baş nazirin müavini Əli Əhmədovun sədrliyi ilə müzakirəsi keçirilib. Müzakirələrdə ekspertlər, o cümlədən bizim Komitə də iştirak edib. Hazırda üzərində iş gedir. Bəzi məsələlər həllini tapmalıdır.

**Burada prinsipial olan nədir?**

*1. Kimsə vəfat etməmişdən əvvəl özünə məzar yeri götürə bilməz;*

*2. Kimsə vəfat etmiş şəxsin yanında əlavə qəbir yerləri götürüb, gələcək üçün saxlaya bilməz - burada istisna var ki, kişi öldükdə arvadı özü üçün, qadın öldükdə əri özü üçün götürə bilər;*

*3. Kimsə qəbir üzərində dəbdəbəli qəbirüstü abidə qura bilməz. Bütün qəbirlərin dinin tələblərinə uyğun vahid standart forması olmalıdır;*

*4. Şəhid olanların dəfn mərasimləri, məzarları ilə bağlı işin təşkili;*

*5. Qəbiristanlarda qəbirlərarası məsafələr və sair.*

*Bu qərar layihəsi qüvvəyə mindikdən sonra aparılacaq dəfn qaydaları ona uyğun olacaq. Amma qərar geriyə şamil olunmayacaq.*

***Məscidlərin əksəriyyətində vebkameralar quraşdırılıb. Bu gün məscidlərimizdə çox savadlı din xadimləri və xütbə söyləyənlər var. Məqsədimiz odur ki, xütbələri daha çox vətəndaşımızın dinləməsinə şərait yaradılsın.***

# QMİ-nin Qazılar Şurası Məhərrəmlik ayı ilə bağlı fətva verib

**Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Qazılar Şurası sentyabrın 27-də keçirdiyi tədbirdə Məhərrəmlik ayı ilə bağlı fətva verib. Fətva QMİ-nin sədri şeyxülislam Allahşükür Paşazadənin sədrliyi ilə keçən toplantıda oxunub.**



Fətvada deyilir ki, Hicri-qəməri təqvimi ilə 1437-ci il başa çatır. Yeni Hicri 1438-ci ilin başlanğıcı – Məhərrəm ayının 1-i Miladi təqvimlə 2016-cı il oktyabr ayının 3-nə təsadüf edir: “Müqəddəs aylardan olan Məhərrəm ayı Həzrət Peyğəmbərin (s) buyurduğu kimi, müharibə və münaqişələrin qadağan edildiyi aylardandır. Lakin təəssüflər olsun ki, bu ayın onuncu, yəni Aşura günü İslam tarixinə Həzrət Peyğəmbərin (s) əziz nəvəsi İmam Hüseyn əleyhissəlamın və Əhli-Beyt (ə) tərəfdarlarının haqq uğrunda şəhadətə yetişdiyi bir gün kimi daxil olub. Müsəlman ümmətinin tarixində kədərli, eyni zamanda, insanlara şərəf və qürur bəxş edən Kərbəla faciəsinin nəsillərin yaddaşında əbədi yaşaması, İmam Hüseynin (ə) həyat və şəhadətinin yad edilməsi bu gün də dindarlar üçün böyük əhəmiyyət kəsb edir. Belə ki, ölkəmizdə İmam Hüseyn (ə) əzadarlığı, Peyğəmbər nəvəsinin iman, mənəviyyatın saflığı uğrunda mübarizəsinin yad edilməsi bədbinlik əhval-ruhiyyəsinin təlqini deyil, Vətən və iman sevgisinin təcəssümü, işğal olunmuş Qarabağ torpaqlarının azad edilməsi uğrunda mübarizədə fədakarlıq və dəyanət örnəyi olmalıdır”.

Məhərrəm ayının 10-u – Aşura gününün oktyabrın 12-nə təsadüf etdiyi bildirilib. Qeyd olunub ki, Aşura mərasimləri, mövcud qanunvericiliyə əsasən, məscidlərdə, ibadət ocaqlarında və onlara aid ərazilərdə ictimai asayiş qaydalarına riayət olunmaqla keçirilməlidir: “Təziyə məclislərində dindarlar tərəfindən Kərbəla vaqeəsində İmam Hüseyn (ə) və onunla birlikdə şəhid olanlar yad edilməli, Vətənimiz uğrunda canlarını qurban vermiş qəhrəman övladlarımızın əziz xatirəsi ehtiramla anılmalıdır. Əzadarlıq məclisləri keçirilən məkanlarda nizam-intizam gözlənilməlidir. Qurşağadək soyunub zəncir, sinə vuraraq bədənə xəsarət yetirməklə qan çıxarmaq müqəddəs şəriətimizə uyğun deyil və ictimai qınağa səbəb olur. Əzadarlar özlərinə və digərlərinə xəsarət yetirməməli, başqalarını da belə hərəkətlərə təhrik etməməlidirlər”.

Daha sonra bildirilib ki, son illər təziyə günlərində QMİ-nin təşəbbüsü ilə gerçəkləşən qan verilməsi aksiyalarının təşkili ən münasib əzadarlıq nümunəsidir və bu humanist ənənə davam etdiriləcək.

Fətvada o da qeyd olunub ki, moizə və xütbələrdə erməni ekstremistləri tərəfindən zəbt olunmuş torpaqlarımızın azad edilməsi ilə bağlı Ali Baş Komandanın əmrinə hər an hazır olmaq vurğulanmalı, dindarlar daima Vətən təəssübünü, milli və dövləti mənafelərini uca tutmağa çağırılmalıdır.

Tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və Milli Məclisin ictimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov da iştirak edib.

# "Azərbaycan multikulturalizmi: din və dil siyasətinin inkişaf perspektivləri"

**Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Mərkəzi Elmi Kitabxanasında sentyabrın 8-9-da AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin birgə təşkilatçılığı ilə "Azərbaycan multikulturalizmi: din və dil siyasətinin inkişaf perspektivləri" mövzusunda beynəlxalq konfrans keçirilib.**



Konfransı açan AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli hazırda ölkədə olduqca aktual xarakter daşıyan multikulturalizm dəyərlərinin Azərbaycan modeli barədə danışıb. Prezident İlham Əliyevin 2016-cı ilin Azərbaycanda "Multikulturalizm ili" elan edilməsi haqqında imzaladığı Sərəncamın əhəmiyyətindən bəhs edən akademik bildirib ki, dövlətimizin başçısının təşəbbüsü ilə multikulturalizm dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrilib: "Azərbaycan modeli üç prinsipə əsaslanır: tarixi milli dəyərlər, tolerantlıq və azərbaycançılıq. Burada azərbaycançılıq prinsipi xüsusi önəm daşıyır".

Tədbirdə çıxış edən Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri, akademik Kamal Abdullayev ölkəmizdə multikulturalizmin həyat tərzi olduğunu, respublikamızda multikultural dəyərlərin, tolerantlıq ənənələrinin əsrlərə söykəndiyini deyib: "Azərbaycanda normal tolerant mühit var, burada müxtəlif xalqların nümayəndələri, fərqli dinlərə mənsub insanlar eyni hüquqa malikdir və əsrlərdir qardaşlıq, dostluq şəraitində yanaşı yaşayırlar".

Azərbaycan multikulturalizminin dünyanın müxtəlif ölkələrində təbliğ və tədris edildiyini diqqətə çatdıran Kamal Abdullayev ölkəmizin ali təhsil müəssisələrində bu fənnin tədrisinin əhəmiyyətini xüsusi vurğulayıb. Diqqətə çatdırılıb ki, Azərbaycan multikulturalizminə olan maraq respublikamızın dünyada tarixi örnək dəyərlərə malik ölkə kimi tanıdılmasının nəticəsidir: "Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları" kitabının nəşri, "Azərbaycan multikulturalizmi" dərsliyinin yazılması, "Multikulturalizm" jurnalının çap edilməsi, eyniadlı fənnin proqramının tərtib olunaraq dünya universitetlərinə təqdim edilməsi, dünyanın 15 ali təhsil ocağında tədris olunan "Azərbaycan multikulturalizmi" fənninin faydası və lazımlılıq dərəcəsi bizim işimizin həm mürəkkəbliyini, həm çoxşaxəliliyini, həm də cəmiyyətimiz, gələcəyimiz üçün vacibliyini bir daha göstərir".

Konfransda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı qeyd edib ki, bu gün dünyada multikulturalizmin alternativi yoxdur. Tarixən tolerant və multikultural dəyərləri üstün tutan, əhalisinin 96 faizini müsəlmanlar təşkil edən Azərbaycanda bütün dinlərin nümayəndələri – müsəlman, xristian, yəhudilər əsrlərdir sülh və qardaşlıq şəraitində yaşayırlar.

Komitə sədri dünyadakı bütün problemlərin həllinin dinlərarası, sivilizasiyalararası dialoqlardan, digər dinlərin, dillərin, müxtəlif mədəniyyətlərin, eləcə də ayrı-ayrı irqlərin nümayəndələrinə bərabər münasibətin, hörmətin göstərilməsindən – multikulturalizmdən asılı olduğunu söyləyib.

Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun icraçı direktoru Oqtay Səmədov tədbirin mövzusunun aktuallığını diqqətə çatdırıb, bu cür tədbirlərin keçirilməsinin ənənə halını almasının vacibliyini bildirib. O, Prezident İlham Əliyevin ölkəmizdə Azərbaycan dilinin inkişafına, təbliğinə, tədrisinə, tədqiqinə və dil siyasətinin həyata keçirilməsinə göstərdiyi diqqət və qayğıdan söz açıb.

Qeyd edilib ki, fəaliyyətə başladığı gündən Bilik Fondu tərəfindən multikultural dəyərlər, tolerantlıq, xalqımızın milli- mənəvi dəyərlərinin qorunması istiqamətində bir sıra tədbirlər həyata keçirilib. 2016-cı ildə Bilik Fondu müxtəlif dövlət və elmi qurumlarla birgə 19 konfrans təşkil edib ki, bunlardan doqquzu multikulturalizm mövzusunda problemlərə həsr olunub.

Tədbirdə akademiyanın Nəsimi adına Dilçilik İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Möhsün Nağısoylu, Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Qəmərxanım Cavadlı, rusiyalı professor Marianna Dvoreçkaya, türkiyəli alim Selçuk Seçkin və ölkəmizdə fəaliyyət göstərən müxtəlif konfessiyaların və dini icmaların nümayəndələri mövzunun aktuallığını vurğulayaraq, multikulturalizm dəyərlərini birgə səylərlə təşviq etməyin vacibliyini vurğulayıblar.

Konfransın plenar iclasında "Vicdan azadlığının və ana dilində danışmaq hüququnun konstitusion hüquqi təminatı" mövzusunda məruzə ilə çıxış edən Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun aparat rəhbəri, professor İsaxan Vəliyev qeyd edib ki, insanın əsas hüquq və azadlıqlarından sayılan vicdan azadlığı və ana dilində danışmaq hüququnun təmin olunması demokratik cəmiyyətlərin, dövlətlərin ümumi inkişafının təməl prinsiplərindən sayılır. Vicdan azadlığı hər kəsin dinə münasibəti ilə bağlıdır. Azərbaycan Respublikasının 1995-ci ildə qəbul olunmuş Konstitusiyasında din və dövlət münasibətləri beynəlxalq standartlara uyğun şəkildə tənzimlənib və ölkəmiz dünyəvi dövlət elan edilib. Azərbaycanda vicdan azadlığı hüququnun təminatı sırasında ən mühüm yerlərdən birini bərabərlik hüququ prinsipi tutur.

Konfransın bölmə iclaslarında "Müasir Azərbaycanda dövlət-din münasibətləri", "Azərbaycan tatlarının dilinin etnoqrafik leksikasına dair Azərbaycan dilinin nitq mədəniyyəti problemləri", "Qafqaz xalqlarının dilində işlənən "kotan" termini qədim mədəni əlaqələrin yadigarı kimi", "Azərbaycan Respublikasında milli azlıqların mədəni irsinin qorunması və inkişafı", "Heydər Əliyev Azərbaycanda multikulturalizmin siyasi banisi kimi" və digər mövzularda məruzələr dinlənilib.

# Dövlət Komitəsi daha 10 dini icmaya maliyyə vəsaiti ayırdı



**Sentyabrın 22-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) maliyyə yardımı ayrılmış daha 10 dini icma sədrinin iştirakı ilə toplantı keçirilib.**







Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı ölkəmizdəki dini durum barədə toplantı iştirakçılarına geniş məlumat verərək bildirib ki, müstəqillik əldə etdikdən sonra xalqımızın milli-mənəvi dəyərlərinə qayıdışı prosesi sürətlənib, dinə dövlət qayğısı özünün ən yüksək həddinə çatdırılıb. Dövlət Komitəsi sədrinin birinci müavini bu istiqamətdə Ümummilli Lider Heydər Əliyevin müstəsna xidmətlərini qeyd edərək, hazırda bu siyasətin ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirib. O, dövlət başçısının ölkədə dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini daha da gücləndirmək məqsədi ilə dini icmalara maliyyə yardımı göstərmək üçün imzaladığı müvafiq Sərəncamın əhəmiyyətindən danışıb.

Səyyad Salahlı dövlətin daim dindarların və dini icmaların yanında olduğunu, mütəmadi olaraq İslam və qeyri-islam dini icmalarına maliyyə vəsaiti ayırdığını vurğulayıb. Dini icmalar tərəfindən təqdim edilən layihələrin məqsədinin yerlərdə dini maarifləndirmə işlərinin genişləndirilməsi, xalqımızın tolerant və multikultural dəyərlərinin ictimaiyyətə dolğun formada çatdırılması olduğunu vurğulayan Səyyad Salahlı müvafiq Sərəncamı dövlətin dinə qayğısının ən bariz nümunəsi kimi qiymətləndirib.

Komitə sədrinin birinci müavini, eyni zamanda, dini icma sədrlərinə məzhəblərarası qarşıdurmaya sövq edən hərəkətlərin qarşısını almağı, rəhbərlik etdikləri icmaların radikalizmlə ideoloji mübarizə istiqamətində fəaliyyət göstərmələrini tövsiyə edib.

Qeyd edək ki, Prezident İlham Əliyevin 27 noyabr 2014-cü ildə imzaladığı Sərəncama uyğun olaraq Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən indiyədək 131 dini icmaya maliyyə yardımı ayrılıb ki, bunlardan 19-u qeyri-islam, 112-i isə İslam dini icmasıdır.

# Dövlət Komitəsində yeni qeydiyyatdan keçmiş 11 dini icmaya şəhadətnamələr təqdim edilib



**Sentyabrın 9-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yeni qeydiyyatdan keçmiş 11 dini icmaya şəhadətnamələr təqdim edilib.**

Dövlət Komitəsi sədrinin müavini Gündüz İsmayılov Azərbaycanda dövlət-din münasibətlərindən danışaraq bildirib ki, dövlət tərəfindən dinə, o cümlədən İslam və qeyri-islam təmayüllü dini icmalara diqqət və qayğı göstərilir. Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra bütün sahələrdə olduğu kimi dövlət-din münasibətlərində də müstəqilliyimizə, milli-mental dəyərlərimizə, dinimizə uyğun qaydaların təsbit olunduğunu vurğulayan Komitə







sədrinin müavini dini icmaların Azərbaycan cəmiyyətində özünəməxsus yeri və rolu olduğunu bildirib.

Yeni qeydiyyatdan keçmiş dini icmaların sədrlərinə tövsiyələrini verən Gündüz İsmayılov icmaları daha aktiv olmağa, yerlərdə axund və imamlarla, eləcə də QMİ-nin nümayəndələri ilə qarşılıqlı əməkdaşlıq şəraitində fəaliyyət göstərməyə, ideoloji təhlükəsizlik məsələsinə həssas yanaşmağa çağırıb.

Eyni zamanda, Komitə sədrinin müavini dini icma sədrlərinə məzhəblərarası qarşıdurmaya sövq edən hərəkətlərin qarşısını almağı, rəhbərlik etdikləri icmaların milli-mənəvi dəyərlərimizin təbliği və radikalizmə qarşı ideoloji mübarizə istiqamətində fəaliyyət göstərmələrini, ümummilli maraqlardan və ənənəvi dəyərlərdən çıxış etmələrini tövsiyə edib.

Sonda yeni qeydiyyatdan keçmiş 11 dini icmanın sədrinə qeydiyyat şəhadətnamələri təqdim edilib.

# Gündüz İsmayılov: "Dəfn xərcləri "dəfn pulu"ndan artıq olmayacaq"

**"Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Nazirlər Kabinetinə təqdim etdiyi "Məzar yerləri və məzarlıqlar haqqında" qərar layihəsində dəfn xərclərinin dəfn üçün müavinətin məbləğindən artıq olmamasını təklif edib".**

Bu sözləri Trend-ə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov deyib.

G.İsmayılov qeyd edib ki, "dəfn işi" məzar üçün torpağın ayrılması, qəbrin qazılması, dəfn və başdaşının qoyulmasından ibarətdir: "Əgər vəfat etmiş şəxsin iş yeri varsa, "dəfn pulu" dediyimiz vəsait onun iş yerindən verilir. Əgər ölən təqaüdçüdürsə, həmin vəsait Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən ödənilir. Təklifimizin mahiyyəti ondan ibarətdir ki, dəfn üçün xərclər bu vəsaitdən artıq olmasın. Biz məzar üçün torpağın pulsuz olacağını nəzərdə tuturuq. İkincisi, qəbiristanların saxlanılması, abadlaşdırılması vətəndaşların deyil, bələdiyyələrin hesabına olacaq. Təklifimizdə də məqsəd odur ki, torpaq pullu olmasın, qəbirüstü abidələr təmtəraqlı olmasın, qəbiristanlar normal şəkildə fəaliyyət göstərsin".

G.İsmayılov əlavə edib ki, layihədə bir nəfərin bir neçə qəbir yeri götürməsinə icazə verilmir: "Yəni heç kim 4-5 qəbir yeri götürə bilməz. İkinci yer o şərtlə verilə bilər ki, həmin yeri vəfat etmiş şəxsin həyat yoldaşı götürsün. Eyni vaxtda iki nəfərdən artıq insan üçün məzar yeri verilə bilməz".



# "İslamda qadın zorakılığına münasibət" adlı tədbir keçirilib

**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə "İslamda qadın zorakılığına münasibət" adlı tədbir keçirilib.**

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova tədbiri giriş sözü ilə açıq elan edib. O bildirib ki, tədbirin keçirilməsində əsas məqsəd İslamda qadın-kişi bərabərliyi, müsəlman cəmiyyətində qadının mövqeyi, ailə dəyərlərinə və qadınlara qarşı zorakılığa dini münasibətin düzgün qiymətləndirilməsidir. H.Hüseynova qeyd edib ki, İslam qadınların ictimai aktivliyini dəstəkləyən başəri dindir.

O bildirib ki, qadın məşğulluğunun, sahibkarlıq fəaliyyətinin artırmasına nail olmaq məqsədilə komitə Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı ilə birgə "Kənd və rayon yerlərində yaşayan qadınların iqtisadi və sosial həyatda iştirakının təşviqatı" texniki yardım layihəsi həyata keçirir.

Komitə sədri qeyd edib ki, artıq layihə çərçivəsində Sabirabadda 7, Masallıda 14, Neftçalada 6 qadın biznes fəaliyyətinə başlayıb. Dövlət Komitəsinin sədri əlavə edib ki, məişət zorakılığı böyük problemdir: "Komitə tərəfindən artıq məişət zorakılığı ilə bağlı məlumat bankı yaradılıb. Məişət zorakılığı haqda bütün məlumatlar həmin bankda toplanır". Cəmiyyətdə məişət zorakılığı, selektiv abortlar, erkən nikah və təhsildən yayınma halları, intiharlar, xüsusilə uşaq intiharlarının sayının artması müşahidə olunur. Tək valideynli, tək uşaqlı ailələrin sayı artıb. Komitə sədri onu da bildirib ki, "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası çərçivəsində "Azərbaycan ailəsi Strategiyası" hazırlanır. Sənəddə ailə institutunun möhkəmləndirilməsi istiqamətində sosial, səhiyyə, psixoloji, hüquqi məsələləri özündə əks etdirən təkliflər hazırlanıb.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı qeyd edib ki, ailə məsələsində ailə tərbiyəsi ilə məktəb tərbiyəsi üst-üstə düşməlidir. Dini maarifləndirmə işləri davam etdirməlidir. Bəzi ailələrdə məişət zorakılığı həm qadına, həm də uşaqlara qarşı baş verir. Mübariz Qurbanlı qeyd edib ki, İslam dini qadın hüquqlarına böyük önəm verir. Qadına qarşı zorakılıq halları xristian ölkələrinə nisbətən İslam dünyasında daha azdır.

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Aqiyə Naxçıvanlı isə Azərbaycan ailəsinin dövlətin qayğısı ilə tam əhatə olunduğunu qeyd edib. Bildirib ki, şəxsiyyətin formalaşmasında sosial mühit böyük rol oynayır. A.Naxçıvanlı bildirib ki, ictimai həyatda qadının mövqeyi uzun tarixi bir dövr keçərək formalaşıb və inkişaf edib. Lakin bu inkişaf asan əldə olunmayıb, qadınlar özlərini təsdiq etmək üçün bir sıra çətinlikləri aradan qaldırmaq uğrunda mübarizə aparıblar.

Qeyd edib ki, qadınlara qarşı zorakılığın qarşısının alınması müasir dövrün mühüm məsələlərindəndir. Bəzən də qadınlara qarşı zorakılıq ilk növbədə ondan irəli gəlir ki, qadınların bir çoxu öz hüququnu bilmir, dövlətin verdiyi imkanlardan istifadə etməyi bacarmır. Müstəqil dövlətimizin ali qanunları dövlət qadın siyasətinin həyata keçirilməsi üçün hüquqi müstəvidə böyük imkanlar açır. Ona görə də Prezident İlham Əliyevin diqqəti və qayğısı sayəsində bu gün ölkədə qadın hüquqlarının müdafiəsi sahəsində mühüm addımlar atılır.

Tədbirdə Milli Məclisin deputatları, dövlət qurumlarının nümayəndələri və ilahiyyatçılar iştirak ediblər.



# Səyavuş Heydərov: "Radikal müxalifət və radikal dindarlar eyni mərkəzdən idarə olunurlar"

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərovun APA-ya müsahibəsi*

**- Azərbaycanda keçiriləcək referendum ərəfəsində dindarların bəzi müxalif qüvvələri dəstəklədiyinə dair məlumatlar yaydılar. Buna münasibətiniz necədir?**

- Qeyd etdiyiniz məsələ ilə əlaqədar bildirmək istəyirəm ki, yaradılmağa çalışılan bu görüntünün heç bir əsası yoxdur. Belə ki, Bakı şəhərində fəaliyyət göstərən dini icmalar ortaq bəyanatla çıxış edərək dinin siyasiləşdirilməsi cəhdini qətiyyətlə pislədilər. Dolayısıyla dindarların radikal müxalifəti dəstəklədiyini iddia edənlər gülünc vəziyyətə düşdülər. Ölkəmizdə dövlət-din münasibətləri yüksək səviyyədə tənzimlənir və dindarlar hər fürsətdə cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə yürüdülən düşünülmüş siyasətə öz dəstəklərini ifadə edirlər.

**- Sizcə, müxalifəti dini sferaya yönləndirən başlıca səbəb nədən ibarətdir?**

- Bilirsiniz, əslində, burada məqsəd dindarlara qayğı göstərmək və ya onların çətinlikləri ilə maraqlanmaq deyil. Radikal müxalifət əvvəllər olduğu kimi bu addımı da öz iradəsi ilə atmır. Bəlkə də çoxları üçün təəccüblü görünsə də, mən bunu əminliklə deyə bilərəm ki, radikal müxalifət və radikal dindar şəxslər eyni mərkəzdən idarə olunurlar. Buna şübhəsi olanlar Yaxın Şərqin ən yeni tarixinə nəzər sala bilərlər. Məqsəd inkişaf edən, çiçəklənən, günü-gündən daha mütərəqqi bir dövlətə çevrilən və ən başlıcası müstəqil siyasət yürüdən Azərbaycana mane olmaq, ölkəmizdə ictimai-siyasi sabitliyi pozmaqdır. Heç kim üçün sirr deyil ki, Azərbaycanın yürütdüyü müstəqil siyasət başda ermənipərəst qüvvələr olmaqla çoxlarını narahat edir. Belə bir şəraitdə ölkəmizdə də "Yaxın Şərq ssenarisi"ni arzulayan məkrli və mənəviyyatsız şəxslər var. Həmin şəxslər də qeyd etdiyimiz mərkəz tərəfindən alət kimi istifadə edilərək dini siyasiləşdirməyə cəhd göstərirlər. Biz mütəmadi olaraq bildirmişik ki, dinin siyasiləşdirilməsi qətiyyən yolverilməzdir. Bunun baş verdiyi ölkələrin aqibəti göz qabağındadır. Məhz dinin siyasiləşdirilməsi nəticəsində bir çox ölkələr yüzilliklər boyu bərpa olunmayacaq dağıntılara, toqquşmalara və qarşıdurmalara məruz qalıb.

**- Sizcə, insanlar, xüsusilə dindarlar hansı mövqedə dayanmalıdırlar?**

- Mən istərdim ki, hər kəs mövcud mənzərəyə diqqətlə baxsın. Bu gün siyasi təfəkkür və yanaşma baxımından daban-dabana ziddiyyət təşkil edən qüvvələr eyni arenada cəmləşirlər. Axı bu necə ola bilər ki, dindar və ateist olan şəxslər eyni fikirləri bölüşsün? Səmimi bir dindar Allahın varlığını inkar edən şəxslə çiyin-çiyinə getməz. Burada açıq-aydın görünür ki, məqsəd başqadır. Dinin siyasiləşdirilməsi ilə yanaşı, müşahidə olunan ikinci faktor siyasətin dindarlaşdırılması cəhdidir. Dünən qərbyönümlü dünyəvi mövqedə olan siyasətçi bu gün dindar şüarlar səsləndirirsə, bu artıq onun nə qədər keyfiyyətsiz xarakterə malik olduğundan xəbər verir. Öz siyasi məqsədləri və ambisiyalarını həyata keçirməyə çalışan belə "siyasətçilər" anlamırlar ki, onsuz da "koma" vəziyyətində olan siyasi xətlərini qaçılmaz ölümə məhkum edirlər. Bu gün Azərbaycanda yaşayan dindar şəxslər dövlət tərəfindən onlara göstərilən qayğını görür və siyasi oyunlara alət olanları pisləyirlər.

**- Müxalifət tərəfindən təşkil olunan mitinqlərdə dini şüarların səsləndirilməsini necə qiymətləndirirsiniz?**

- Qeyd etdiyiniz şüarları səsləndirənlərin əksəriyyəti radikal şəxslərdir. Onlar Azərbaycan dindarlarını heç bir şəkildə təmsil etmirlər. Həmin mitinqlərdə siyasi platforma və siyasi fikirlər səsləndirilmək əvəzinə, hansısa dini şüarlar səsləndirilirsə, bu, həmin siyasətçilərin acizliyindən xəbər verir. Artıq siyasi sözü bitmiş "siyasətçilər" insanların mənəvi dəyərlərini istismar etməyə çalışırlar. Dini dəyərləri bir mitinq səviyyəsinə endirən şəxslər oturub düşünməlidirlər ki, mənəviyyatı bu qədər ucuzlaşdırmaq olarmı? Mən bir daha əminliyimi ifadə etmək istəyirəm ki, ölkəmizdə dinin siyasiləşdirilməsi və siyasətin dindarlaşması cəhdləri iflasa uğrayacaq. Azərbaycan bütün sahələrdə olduğu kimi, dövlət-din münasibətlərinin tənzimlənməsində də nümunəvi ölkə olaraq öz yoluna davam edəcək.



# "Azərbaycanın multikultural mühiti və ona qarşı təhdidlər"

Sentyabrın 2-də Quba şəhərindəki Heydər Əliyev Mərkəzində Gənclər və İdman Nazirliyinin və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin birgə təşəbbüsü ilə gənclər arasında milli-mənəvi dəyərlərin təbliği, eləcə də dini radikalizmə qarşı mübarizəyə həsr olunmuş toplantı keçirilib.

"Azərbaycanın multikultural mühiti və ona qarşı təhdidlər" mövzusunda təşkil olunan tədbirdə dövlət qurumları, gənclər təşkilatlarının nümayəndələri, tələbələr və fəal gənclər iştirak ediblər.

Əvvəlcə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sifarişi ilə hazırlanan "Fitnə" filmi nümayiş etdirilib.

Gənclər və idman nazirinin müavini İntiqam Babayev Azərbaycanda hökm sürən etnik və dini tolerantlığın dünyaya nümunə olduğunu bildirib. Qeyd edib ki, ölkəmizdə istər dini, istərsə də milli və irqi ayrı-seçkilik yoxdur. Azərbaycanda yaşayan bütün xalqların nümayəndələri, o cümlədən müxtəlif dinlərin təmsilçiləri arasında bir-birinə tolerant yanaşma mövcuddur. Amma bu multikultural mühitin qorunub saxlanılması üçün daim iş aparmaq lazımdır. Xüsusilə gənclər ayıq-sayıq olmalı, kənar təhdidlərlə uymamalıdırlar.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov dini maarifləndirmə prosesinin, o cümlədən bu cür tədbirlərin davamlı olmasının zəruriliyini vurğulayıb. Bildirilib ki, bu gün tolerantlığın Azərbaycan modeli dünya üçün nümunə sayılır. Prezident İlham Əliyevin rəhbərliyi ilə dini dəyərlərin qorunub saxlanılması və inkişaf etdirilməsi istiqamətində məqsədyönlü dövlət siyasəti həyata keçirilir, İslam həmrəyliyinin gücləndirilməsi və dini dəyərlərin müdafiəsi üçün beynəlxalq miqyasda işlər görülür. 2016-cı ilin ölkəmizdə "Multikulturalizm ili" elan edilməsi, 2017-ci ildə Azərbaycanda keçirilməsi nəzərdə tutulan İslam Həmrəylik Oyunlarının təşkili bu uğurlu siyasətin bariz nümunəsidir.

Toplantıda dini icma sədrləri, gənclər təşkilatlarının üzvləri, tələbələr çıxış edərək mövzu ilə bağlı fikirlərini bölüşüblər.

Daha sonra qarşılıqlı fikir mübadiləsi aparılıb, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# Xəzər rayonunda "Azərbaycanda ənənəvi İslam və xarici təsirlər" mövzusunda seminar





**Sentyabrın 28-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin birgə təşkilatçılığı ilə təsdiq olunmuş Tədbirlər Planına əsasən, Xəzər rayon Gənclər evində "Azərbaycanda ənənəvi İslam və xarici təsirlər" mövzusunda seminar keçirilib.**

Tədbiri giriş sözü ilə açan Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin rəis müavini Aydın Yusifov mövzu ilə bağlı geniş məlumat verərək dövlət-din münasibətlərindən, ölkəmizin tolerantlıq ənənələrindən danışıb. O bildirib ki, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və digər aidiyyəti dövlət qurumları vicdan azadlığından sui-istifadə cəhdlərinin, dini radikalizmin qarşısının alınması istiqamətində qətiyyətli tədbirlər həyata keçirirlər.

Daha sonra Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdir müavini Ruslan Əsgərov "Azərbaycanda ənənəvi İslam və xarici təsirlər", Dini maarifləndirmə işinin təşkili şöbəsinin məsləhətçisi Orxan Maşayev "Dini radikalizm və onun təzahür formaları" mövzularında çıxış edərək dini radikalizmə və ekstremizmə qarşı mübarizə, zərərli dini təriqətlərin yayılmasının qarşısının alınması sahəsində görülən işlər barədə geniş məlumat veriblər.

Xəzər Rayon İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər şöbəsinin əməkdaşı Çərkəz Tanrıverdiyev və Xəzər rayon Gənclər və İdman İdarəsinin rəisi Vüqar Əliyev çıxışlarında milli-mənəvi dəyərlərin qorunmasından, İslam dininin olduğu kimi təbliğ edilməsindən danışıblar.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# Yevlaxda regional konfrans keçirilib



**Sentyabrın 21-də Yevlax rayonunda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Yevlax Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Multikultural və tolerant dəyərlərimiz: tarixilik, varislik, müasirlik" mövzusunda regional konfrans keçirilib.**



Konfransda DQİDK-nın sədr müavini Gündüz İsmayılov, Yevlax Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Qənimət Qaraşov, Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Yevlax bölgəsi üzrə səlahiyyətli nümayəndəsi Namiq Əliyev, dini icma sədrləri, din xadimləri, idarə və müəssisə rəhbərləri, kənd, qəsəbə bələdiyyə sədrləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Konfransı giriş sözü ilə açan Yevlax Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Qənimət Qaraşov bildirib ki, Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət nəticəsində ölkəmizdə müxtəlif dinlərə etiqad edən insanlar mehriban və qarşılıqlı hörmət şəraitində yaşayırlar. Dövlətin din sahəsində yürütdüyü siyasətdən bəhs edən Q.Qaraşov bu ilin dövlətimizin başçısı tərəfindən "Multikulturalizm ili" elan edilməsinin ölkəmizdə müxtəlif xalqların nümayəndələrinin sülh şəraitində birgəyaşayışı baxımından mühüm addım olduğunu diqqətə çatdırıb.

Sonra çıxış edən Dövlət Komitəsi sədrinin müavini Gündüz İsmayılov Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən multikulturalizm siyasətinin milli, ideoloji, ictimai təhlükəsizliyimizin əsas elementi olduğunu bildirib. Azərbaycan xalqının multikultural, tolerant dəyərlərinin ölkə və beynəlxalq səviyyədə təbliği və təşviqi istiqamətində həyata keçirilən tədbirlərdən danışan sədr müavini qeyd edib ki, respublikamızın bu sahədə nümunəvi ölkə olduğunu artıq beynəlxalq təşkilatlar, bu sahədə fəaliyyət göstərən ekspertlər, diplomatlar da təsdiq edib.

Gündüz İsmayılov multikultural cəmiyyətə əsas təhdid hesab olunan dini radikalizm və ekstremizmin fəsadlarından və bu kimi halların qarşısının alınması yollarından bəhs edib. Dini radikalizmlə mübarizə çərçivəsində görülən işlər haqqında məlumat verən sədr müavini bununla bağlı aparılan mübarizə tədbirlərindən danışıb.

QMİ-nin Yevlax bölgəsi üzrə səlahiyyətli nümayəndəsi Namiq Əliyev çıxış edərək dini radikalizmin fəsadlarından, radikalizm əleyhinə aparılan dini maarifçilik işinin əhəmiyyətindən söz açıb.

Tədbirdə Dövlət Komitəsinin Yevlax bölgəsi üzrə şöbəsinin müdiri Natiq Əfəndiyev, DQİDK-nın Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdir müavini Ruslan Əsgərov, YAP Yevlax Rayon Təşkilatının Aparat rəhbəri Əli Quliyev də çıxış ediblər. Bildirilib ki, Prezident İlham Əliyevin apardığı düzgün və məqsədyönlü siyasət nəticəsində multikulturalizm Azərbaycanın dövlət siyasətinə, xalqımızın həyat tərzinə çevrilib, ölkəmizdə milli-mənəvi dəyərlər yüksək səviyyədə qorunur.

Sonda mövzu ətrafında müzakirələr aparılıb və iştirakçıların sualları cavablandırılıb.

# Azərbaycan almanları: tolerantlığımızın şahidləri

Azərbaycan təkcə müasir dövrdə deyil, qədim zamanlardan multikultural və tolerant məkan olmuşdur. Buna bariz nümunə ölkəmizdə azərbaycanlılarla yanaşı, başqa millətlərin nümayəndələrinin də sülh və əmin-amanlıq şəraitində yaşamalarıdır. Hazırda ölkə əhalisinin 9,4 faizini başqa millətlərin nümayəndələri olan milli azlıqlar təşkil edir. Bunlara ləzgilər, ruslar, talışlar, avarlar, məhsəti türkləri, tatarlar, ukraynalılar, saxurlar, gürcülər və s. aiddir. Daha bir millətin nümayəndələri isə təxminən iki yüz il boyunca ölkəmizdə azərbaycanlılarla dostluq və əmin-amanlıq şəraitində birgə yaşayan almanlardır.

Tarixdən də məlum olduğu kimi, almanlar Azərbaycanda XIX əsrin əvvəllərində məskunlaşmağa başlayıblar. Bu dövrdə Almaniya iqtisadi və dini qarşıdurmadan əziyyət çəkirdi. 1816-1818-ci illərdə rus imperatoru I Aleksandrın icazəsi ilə Vürtemberq Krallığından Rusiyaya 1400 ailə, 15 koloniya köçürülüb. Bu ailələrdən 500-ü, koloniyalardan isə 8-i Zaqafqaziyada, Tiflis və Yelizavetpol (indiki Gəncə) ətrafında məskunlaşıb. Üç koloniya üçün Gəncəbasar ərazisində - Xanlar, Şəmkir, Gədəbəy, Ağstafa rayonlarında torpaq sahələri ayrılıb və 1819-cu ildə burda ilk alman koloniyası olan Helenendorf (indiki Göygöl), az sonra isə Annenfeldin (indiki Şəmkir) əsası qoyulub. Daha sonra isə almanların yeni koloniyaları – Georqsfeld (indiki Şəmkirin Çinarlı qəsəbəsi), Alekseyevka, Qrünfeld (indiki Ağstafanın Həsənsu kəndi), Ayxenfeld (indiki Şəmkirin İrmaşlı kəndi), Traubenfeld (indiki Tovuz), Yelizavetinka (indiki Ağstafa), Marksovka yaranıb.

XIX əsrin sonu-XX əsrin əvvəllərində Azərbaycanda yaşayan almanların əksər hissəsi protestantlığa etiqad edirdilər. Ölkəmizdə protestant kilsəsi 1857-ci ildə məhz Helenendorfda tikilib. Sonralar Bakı, Şamaxı, Gədəbəy, Şəmkir ərazilərində də alman lüteran kilsələri tikilib istifadəyə verilib.

Almanların Azərbaycanda yerləşdirilməsindən sonra əlli il ərzində Gəncə ətrafında iki, Şəmkirdə və Ağstafada üç, Tovuzda bir alman yaşayış məntəqəsi salınmış və alman ailələrinin sayı 3400-ü keçmişdi. Almanların Azərbaycanın qərb bölgələrində yerləşdirilməsi həmin ərazilərin inkişafına böyük təkan verdi. Onların gəlişindən sonra yerli əhali də almanlar kimi altı zirzəmili, üstü çardaqlı, damı kirəmitli evlər tikməyə başladı. Bundan başqa, ilk dəfə sənaye üsulu ilə pendir və yağ istehsalı, o cümlədən kənd yerlərində elektrik enerjisindən istifadə almanlara məxsusudur.

Azərbaycanda məskunlaşmış almanlar yerli əhali ilə mehriban və sülh şəraitində yaşamışlar. 1914-cü ildə I Dünya müharibəsi başlayan vaxt rus çarı I Nikolay Krım, Moldova, Şimali Qafqaz və Volqaboyunda yaşayan almanların Sibirə köçürülməsini əmr etmişdi. Bu zaman yalnız Gəncə quberniyasındakı almanlar köçürülməmişdi. Gəncə ictimaiyyəti, xüsusilə də Rəfibəyov qardaşları Qafqaz canişininə müraciət edərək almanlara zamin durmuş, onların köçürülməsinə imkan verməmişdilər. 1918-ci ildə bütün Azərbaycandakı koloniyalarda yaşayan almanların sayı altı minə yaxın idi. Azərbaycan Xalq Cümhuriyyəti dövründə almanlar burada koloniyaların salınmasının yüz illiyini qeyd ediblər.

1941-ci ildə Mikoyanın təşəbbüsü və Stalinin əmri ilə təxminən iyirmi mindən çox Azərbaycan vətəndaşı olan alman heç bir tutarlı səbəb olmadan Qazaxıstana və Sibirə sürgün edildi. Onların evlərinin əksəriyyətində Mikoyanın təşəbbüsü ilə erməni ailələri yerləşdirildi. Halbuki sürgünə qədər Xanlar rayonu ərazisində (indiki Göygöl) bir nəfər də olsun erməni yaşamırdı. Erməni millətçilərinin azəri türklərinə qarşı uzun müddət apardığı terror və soyqırımı siyasətindən almanlar da zərər çəkiblər. 1905-ci ildən 1907-ci ilin avqustuna kimi "Daşnaksütyun" partiyasının Gəncədəki yerli təşkilatının rəhbəri Koryun partiya silahdaşları Arutyunov qardaşları ilə birgə Helenendorf almanlarını partiya xəzinəsinə xərac verməyə məcbur etmiş, şərab istehsalçıları olan Forer və Qurrdan hərəyə otuz min rubl pul tələb etmişdilər. Qurr bu məbləği verə bilmədiyindən qətlə yetirilmişdi. Sovetləşmədən sonra ermənilər Azərbaycanda yaşayan almanlara "antisovetçi" damğası vurduraraq onların bir hissəsinin güllələnməsinə nail olublar.

Almanların XIX əsrdə üstünlük təşkil etdikləri qərb bölgəsi ilə yanaşı, Bakıda da izləri var. Bakı şəhəri 28 may küçəsindəki protestant-lüteran kilsəsi, onun yanında yerləşən və 1908-ci ildə kilsə icmasının tapşırığı ilə inşa edilən Alman-Azərbaycan mədəniyyət mərkəzi Kapellhaus bu gün də müxtəlif tədbirlərin keçirildiyi yerlərdəndir. Bundan başqa, Bakıdakı bir çox tikilini, o cümlədən indiki İncəsənət Muzeyinin binasını da almanlar inşa ediblər.

Azərbaycanda yaşamış almanların sonuncu varisi Viktor Klayn olmuşdur. Klayn 2007-ci il martın 29-da vəfat etmişdir. O, sovetləşmədən sonra "antisovetçi" damğası vurularaq güllələnməyə məhkum edilənlərin qətlinin canlı şahidlərindən olmuşdu. Onun Göygöldə yaşadığı ev Almaniya səfirliyi tərəfindən muzeyə çevrilib.

Prezident İlham Əliyevin Cənubi Qafqaz regionunda alman məskənlərinin salınmasının 200 illiyi haqqında 30 avqust 2016-cı il tarixli Sərəncamı bir daha göstərdi ki, ölkəmizdə məskunlaşmış başqa millətlərin nümayəndələrinə təkcə xalqımız deyil, dövlətimiz də hörmət və diqqət göstərir. Sərəncamda qeyd olunur ki, almanlar məskunlaşdıqları və qaynayıb-qarışdıqları bu yerləri İkinci Dünya müharibəsi dövründə tərk etməli olsalar da, onların özlərindən sonra qoyub getdikləri tarixi-mədəni irsi Azərbaycan xalqı multikultural təbiətinə sadiqlik nümayiş etdirərək lazımınca qoruyub saxlamışdır. 2017-ci ildə Cənubi Qafqaz regionunda alman məskənlərinin salınmasının 200 illiyi tamam olur. Azərbaycan xalqının tarixi və mədəniyyətində dərin iz qoymuş bu hadisənin UNESCO-nun "2016-2017-ci illər üçün görkəmli şəxslərin və əlamətdar hadisələrin yubileyləri proqramı"na daxil edilməsi təqdirəlayiqdir. Prezidentin Sərəncamında Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinə Xarici İşlər Nazirliyi və Milli Elmlər Akademiyası ilə birlikdə Cənubi Qafqaz regionunda alman məskənlərinin salınmasının 200 illiyinə həsr olunmuş tədbirlərə dair xüsusi proqram hazırlayıb həyata keçirilməsi və Nazirlər Kabinetinə Sərəncamdan irəli gələn məsələlərin həll edilməsi tapşırılır.

Yuxarıda sadalanan faktlar – buraya köçürülən almanların yerli əhali tərəfindən himayə olunmaları, sürgün təhlükəsindən qorunmaları, heç vaxt ayrı-seçkiliyə məruz qalmamaları və s. – bir daha sübut edir ki, Azərbaycan xalqı özünün qonaqpərvərliyi, humanistliyi, tolerantlığı və bu kimi ali ümumbəşəri keyfiyyətləri ilə öyünməyə ən çox haqqı çatan, qürur duyulacaq xalqdır!

**Səlim QƏNİYEV**

# Bölgə xəbərlərimiz

Sentyabrın 8-də Mingəçevir şəhərində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı ilə "Tolerantlığın Azərbaycan modeli" mövzusunda konfrans keçirilib. Tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin, Gənclər və İdman Nazirliyinin, Mingəçevir Şəhər İcra Hakimiyyətinin əməkdaşları, rayonun təhsil, səhiyyə və mədəniyyət işçiləri, dindarlar, eləcə də gənclər iştirak ediblər.

Konfransda Gənclər və İdman Nazirliyinin Vətənpərvərlik və vətəndaşlıq sektorunun müdiri Əli Məmmədov, DQİDK-nın Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdir müavini Ruslan Əsgərov, Mingəçevir Şəhər İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Sahib Əliyev, YAP Mingəçevir şəhər təşkilatı Gənclər Birliyinin sədri Bəxtiyar Mustafayev və başqaları çıxış edərək ölkəmizdə dinlərarası münasibətlərin yüksək səviyyədə olması, hər kəsin dini etiqad azadlığı təmin olunması, dövlətin bu sahədə yürütdüyü siyasət nəticəsində multikulturalizm və tolerantlığın xalqımızın həyat tərzinə çevrilməsindən bəhs ediblər. Natiqlər, həmçinin dövlət başçısının müvafiq Sərəncamı ilə bu ilin ölkəmizdə "Multikulturalizm ili" elan olunduğunu diqqətə çatdırıblar.

* * *

Sentyabrın 9-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Gənclər və İdman Nazirliyinin birgə Tədbirlər Planına əsasən, Tərtər rayonunun Gənclər mərkəzində "Dini ekstremizm və onun fəsadları" mövzusunda maarifləndirici tədbir baş tutub.

Tədbirdə Tərtər Rayon İcra Hakimiyyəti Başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Elvin Umudov, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdir müavini Ruslan Əsgərov və Komitənin Ağcabədi bölgəsi üzrə şöbəsinin müdiri Əlizadə Nəcəfov, Gənclər və İdman Nazirliyinin sektor müdiri Əli Məmmədov, Tərtər şəhər "Cümə" məscidinin axundu və eyni adlı dini icmanın sədri Sadiq Cəfərov, Heydər Əliyev Mərkəzinin direktoru S.Yusifova, Tərtər rayon Təhsil şöbəsinin metodisti N.Əsgərzadə və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Natiqlər tədbirdə ölkəmizdəki dövlət-din münasibətləri, dini ekstremizm, onun fəsadları və mübarizə yolları barədə geniş danışıblar.

* * *

Sentyabrın 9-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Quba bölgəsi üzrə şöbəsinin və Quba rayonu II Nügədi kəndi "Molla Hud" məscidi dini icmasının birgə təşkilatçılığı ilə yeniyetmə və gənclər arasında "İslamda gənclərə Vətən sevgisinin aşılanması" adlı yazı müsabiqəsi keçirilib.



Müsabiqədə 18 yaşa çatmamış yeniyetmə və gənclər iştirak edib, dini icmanın təşkil etdiyi münsiflər heyəti tərəfindən ən yaxşı 3 yazı müəyyənləşdirilərək mükafatlara layiq görülüblər.

Münsiflər heyətinin yekun qərarı ilə Araz Hacıəliyev birinci, İsmayıl Əliyev ikinci və Rəşad Abdulxalıqov üçüncü yerlərə layiq görülüblər.

Sonda qaliblərə mükafatlar təqdim olunub.

* * *

Sentyabrın 16-da Şirvan şəhər Gənclər və İdman İdarəsinin iclas zalında "Multikulturalizm ili" çərçivəsində "Multikulturalizm Azərbaycanın dövlət siyasətidir" mövzusunda seminar keçirilib.

Tədbirdə Şirvan şəhər Gənclər və İdman idarəsinin rəisi Azər Quliyev, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) Şirvan bölgəsi üzrə şöbəsinin baş məsləhətçisi vəzifəsini icra edən Mürşüd Rzayev, QHT nümayəndələri və ictimai fəal gənclər iştirak ediblər.

Çıxışlarda ölkəmizdəki multikultural ənənələr, dini dözümlülük, Prezident



İlham Əliyevin 2016-cı ilin Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan edilməsi ilə bağlı Sərəncamının əhəmiyyəti barədə ətraflı bəhs olunub.

* * *

Sentyabrın 21-də Ağcabədi rayon




hüquq-mühafizə orqanlarının rəhbərləri və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Ağcabədi bölgəsi üzrə şöbəsinin birgə təşkilatçılığı ilə "Vəhhabilik və digər zərərli dini təriqətlərə qarşı mübarizə" mövzusunda tədbir keçirilib.

Ağcabədi Pedaqoji Kollecində baş tutan tədbirdə Ağcabədi rayon prokuroru, baş ədliyyə müşaviri Salman Səmədov, Ağcabədi rayon polis şöbəsinin rəisi Məhəmməd İbrahimov, Dövlət Təhlükəsizlik Xidmətinin Ağcabədi şöbəsinin rəisi Natiq Zamanov, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Ağcabədi bölgəsi üzrə şöbəsinin müdiri Əlizadə Nəcəfov, Ağcabədi Pedaqoji Kollecinin direktoru Mirələm İbrahimli, kollecin müəllim və tələbə heyəti iştirak ediblər.

* * *

Prezident İlham Əliyevin ölkədə dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini daha da gücləndirmək məqsədilə dini icmalara maliyyə yardımı göstərmək üçün 2014-cü il noyabrın 27-də imzaladığı Sərəncama əsasən, paytaxt və bölgələrdə tədbirlər davam edir. Sentyabrın 23-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə Bakı şəhəri, Qaradağ rayonu, Müşfiqabad qəsəbə məscidi dini icması tərəfindən "Dini ekstremizm və məzhəblərarası vəhdət" layihəsi çərçivəsində maarifləndirici tədbir keçirilib.

Müşfiqabad qəsəbəsi 320 saylı tam orta məktəbdə keçirilən tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Bakı şəhəri üzrə şöbəsinin müdir müavini Ceyhun Əliyev, şöbənin əməkdaşları Aslan Sultanov və Vasif Musayev, Müşfiqabad qəsəbə məscidi dini icmasının sədri İlşad Süleymanov, məscidin imamı Şaiq Əliyev, məktəbin direktoru Namiq Cəfərov, müəllimlər, valideynlər və şagirdlər iştirak ediblər.

* * *

Sentyabrın 29-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Zaqatala bölgəsi üzrə şöbəsi və Zaqatala Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Azərbaycan Dövlət İqtisad Universitetinin Zaqatala filialında "İslam: ənənə və müasirlik" mövzusunda konfrans keçirilib.

Tədbirdə Zaqatala RİH-in nümayəndəsi İlqar Vəliyev, Dövlət Komitəsinin Zaqatala bölgəsi üzrə şöbəsinin müdiri Mehman İsmayılov, Bakı İslam Universitetinin Zaqatala şöbəsinin müəllimi Asəf Qənbərov, rayonun hüquq-mühafizə orqanlarının əməkdaşları, filialın müəllim və tələbə kollektivi iştirak edib.

**Ağstafa, Daşkəsən və Siyəzəndə**

## "Dünyəvi dövlətdə din: Azərbaycan modeli"

**Sentyabrın 21-də, 22-də və 29-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi müvafiq rayon icra hakimiyyətləri ilə birgə Ağstafada, Daşkəsəndə və Siyəzəndə "Dünyəvi dövlətdə din: Azərbaycan modeli" mövzusunda tədbirlər keçirib.**

Tədbirlərdə müvafiq rayon icra hakimiyyətlərinin əməkdaşları, Dövlət Komitəsinin Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Əliheydər Zülfüqarov, Dövlət Komitəsinin əməkdaşları Anar Əliyev, Vüqar İmamquliyev, Namiq Talıbov, Tovuz bölgəsi üzrə şöbəsinin müdiri Eldəniz Vəliyev, Gəncə bölgəsi üzrə şöbəsinin müdiri Asif Əliyev, Quba bölgəsi üzrə şöbənin müdiri Eynulla Nurullayev və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Çıxışlarda natiqlər Ümummilli Lider Heydər Əliyevin ardıcıl və məqsədyönlü siyasəti nəticəsində ölkədə insan hüquqlarının müdafiəsinə dair qanunvericilik bazasının beynəlxalq normalara uyğunlaşdırılması, dövlət-din münasibətlərinin tənzimlənməsi prinsiplərinin təsbiti, dini etiqad azadlığı ilə bağlı hüquqi-normativ aktlara riayət olunmasına nəzarətin gücləndirilməsi, konfessiyalar arasında dözümlülük ənənəsinin möhkəmləndirilməsi, eləcə də dini abidələrimizin bərpası və qorunması istiqamətində görülən işlərdən və bunların əsasında formalaşan mükəmməl dövlət-din münasibətlərindən bəhs ediblər.

Azərbaycanda tarixən mövcud olan multikulturalizm və tolerantlıq ənənələrindən, dövlətin bu sahədə gördüyü işlərdən geniş şəkildə danışan natiqlər qeyd ediblər ki, bu gün ölkəmizdə dünya dinləri ənənəvi olaraq qarşılıqlı etimad və əmin-amanlıq şəraitində fəaliyyət göstərir, yüzlərlə İslam və qeyri-islam dini icmaları öz etiqadlarını azad və sərbəst şəkildə icra edir.

**Lerik və Astarada**

## "Dini radikalizmə qarşı mübarizədə dini icmaların rolu" mövzusunda seminar-müşavirə keçirilib

Sentyabrın 22-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə Lerikdə yerləşən Heydər Əliyev Mərkəzində, sentyabrın 23-də isə Astara rayonu Təngərüd kənd mədəniyyət evində "Dini radikalizmə qarşı mübarizədə dini icmaların fəaliyyətinin təşkili" mövzusunda seminar-müşavirə keçirilib.

Tədbirdə Dövlət Komitəsinin Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdiri Sadiq Mirzəyev, Dinşünaslıq ekspertizası şöbəsinin müdir müavini Cahandar Əlifzadə, Dövlət Komitəsinin əməkdaşı Tərxan Paşazadə, DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin müdiri Qağayı Məmmədov, şöbənin əməkdaşları Azər Həsənov, Hatəm Gülməmmədov, Lerik Rayon İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini-dini qurumlarla işin təşkilatçısı Rafiq Əzizov, Astara Rayon İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini-dini qurumlarla işin təşkilatçısı Mərasim Hacıyev din xadimləri, dini icma sədrləri, dindarlar və gənclər iştirak ediblər.

Çıxışlarda bölgədəki mövcud dini vəziyyət, dövlətin dini etiqad azadlığının təminatı sahəsində gördüyü işlər, ölkəmizdə radikalizm meyillərinin yaranması və bununla əlaqədar mövcud tendensiyalar, dini xurafatın fəsadları, dini radikalizmə qarşı mübarizə sahəsində aparılan maarifləndirmə işləri, İslamda vəhdət anlayışı, mediada milli-mənəvi dəyərlərin insanlara doğru şəkildə çatdırılması barədə geniş məlumat verilib. Qeyd olunub ki, Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra ölkəmizdə vicdan azadlığı ilə bağlı hüquqlar bərpa olunub, məscid, kilsə və sinaqoqların fəaliyyətinə rəsmən icazə verilib, ölkə Konstitusiyasında bütün dini etiqadların qanun qarşısında bərabər olduğu göstərilib, insan ləyaqətini alçaldan və insanlıq prinsiplərinə zidd dini baxışlar qadağan edilib.



# “Sülh aylığı”

Sentyabr ayında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgə şöbələri müvafiq rayon və şəhər icra hakimiyyətləri ilə birgə “Sülh aylığı” çərçivəsində bölgələrdə tədbirlər keçirib.

Yardımlı, Qusar, Saatlı, Sumqayıt, Astara, Masallı, Lənkəran, Lerik, Neftçala, Şabran, Zərdab, Şəki və İsmayıllıda təşkil olunan, ağsaqqalların, dini icmaların sədrlərinin, din xadimlərinin, dindarların, ictimaiyyət nümayəndələri və gənclər iştirak etdikləri tədbirlərdə “Sülh aylığı”nın yaranma tarixindən, onun əhəmiyyətindən söhbət açılıb. Qeyd olunub ki, həyata keçirilən bu cür maarifləndirmə xarakterli tədbirlər İslam dininin əsl mahiyyətinin anlaşılmasına, vətəndaşların öz hüquq və vəzifələrini daha dərindən öyrənmələrinə yardımcı olacaqdır.



## DİNİ QURUMLARIN DÖVLƏT REYESTR MƏLUMATI

### QEYDİYYAT

**Şamaxı rayonu Mədrəsə qəsəbə məscidi dini icması**
**Qeydiyyat tarixi: 29 avqust 2016-cı il**
**Qeydiyyat №-si: 100116C-686**
**Maliyyə ili: 01 yanvar – 31 dekabr**
Hüquqi ünvanı: Şamaxı rayonu, Mədrəsə qəsəbəsi, Q.Nəbi küçəsi ilə S.Vurğun küçəsinin kəsişməsində yerləşən məscid
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
**Qanuni təmsilçisi: Əhməd Əli oğlu Qasımov**

**Bakı şəhəri Sabunçu rayonu Nardaran qəsəbəsi “Rəhimə xanım ziyarətgahı”məscidi dini icması**
**Qeydiyyat tarixi: 01 sentyabr 2016-cı il**
**Qeydiyyat №-si: 100116B-687**
**Maliyyə ili: 01 yanvar – 31 dekabr**
Hüquqi ünvanı: Bakı şəhəri, Sabunçu rayonu, Nardaran qəsəbəsi, Nəsrulla Əsgərov küçəsi, “Rəhimə xanım ziyarətgahı” məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
**Qanuni təmsilçisi: Musa Məzair oğlu Qasımov**

**Astara rayonu Artupa kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 09 sentyabr 2016-cı il**
**Qeydiyyat №-si: 100116A-688**
**Maliyyə ili: 01 yanvar – 31 dekabr**
Hüquqi ünvanı: Astara rayonu, Artupa kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
**Qanuni təmsilçisi: Ağadada Pilağa oğlu Cavadov**

**Lənkəran rayonu Viyən kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 09 sentyabr 2016-cı il**
**Qeydiyyat №-si: 100116C-689**
**Maliyyə ili: 01 yanvar – 31 dekabr**
Hüquqi ünvanı: Lənkəran rayonu, Viyən kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
**Qanuni təmsilçisi: Arif Babulla oğlu Hüseynov**

**Ucar rayonu Qaradağlı kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 09 sentyabr 2016-cı il**
**Qeydiyyat №-si: 100116D-690**
**Maliyyə ili: 01 yanvar – 31 dekabr**
Hüquqi ünvanı: Ucar rayonu, Qaradağlı kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
**Qanuni təmsilçisi: Vüsal Mütəllim oğlu Azayev**

**Bakı şəhəri Nərimanov rayonu “Yeddinci Günün Adventistləri” dini icması**
**Qeydiyyat tarixi: 09 sentyabr 2016-cı il**
**Qeydiyyat №-si: 100116B-691**
**Maliyyə ili: 01 yanvar – 31 dekabr**
Hüquqi ünvanı: Bakı şəhəri, 3-cü İppodrom küçəsi, ev 27
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
**Qanuni təmsilçisi: Mahir İspəndiyar oğlu Verdiyev**

**Masallı rayonu Dəmirçi kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 09 sentyabr 2016-cı il**
**Qeydiyyat №-si: 100116C-692**
**Maliyyə ili: 01 yanvar – 31 dekabr**
Hüquqi ünvanı: Masallı rayonu, Dəmirçi kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
**Qanuni təmsilçisi: İlkin Musarza oğlu Mənsimov**

**Balakən rayonu Katex kəndi Kombinat məscidi dini icması**
**Qeydiyyat tarixi: 09 sentyabr 2016-cı il**
**Qeydiyyat №-si: 100116A-693**
**Maliyyə ili: 01 yanvar – 31 dekabr**
Hüquqi ünvanı: Balakən rayonu, Katex kəndi, Kombinat ərzisində yerləşən məscid
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
**Qanuni təmsilçisi: Seyfullah Xəlilrahman oğlu Babayev**

**Salyan şəhəri “Şilli” məscidi dini icması**
**Qeydiyyat tarixi: 09 sentyabr 2016-cı il**
**Qeydiyyat №-si: 100116C-694**
**Maliyyə ili: 01 yanvar – 31 dekabr**
Hüquqi ünvanı: Salyan şəhəri, T.Xəlilbəyli küçəsində yerləşən məscid
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
**Qanuni təmsilçisi: Vidadi Məmməd oğlu Səmədov**

**Salyan rayonu Qaraçala qəsəbəsi Çadırlı kəndi “Həzrət Baba” məscidi dini icması**
**Qeydiyyat tarixi: 09 sentyabr 2016-cı il**
**Qeydiyyat №-si: 100116C-695**
**Maliyyə ili: 01 yanvar – 31 dekabr**
Hüquqi ünvanı: Salyan rayonu, Qaraçala qəsəbəsi, Çadırlı kəndi, “Həzrət Baba” məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
**Qanuni təmsilçisi: Zulfiya Saleh qızı Məmmədova**

**Hacıqabul rayonu Şorbaçı kəndi “Cümə” məscidi dini icması**
**Qeydiyyat tarixi: 09 sentyabr 2016-cı il**
**Qeydiyyat №-si: 100116A-696**
**Maliyyə ili: 01 yanvar – 31 dekabr**
Hüquqi ünvanı: Hacıqabul rayonu, Şorbaçı kəndi, “Cümə” məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
**Qanuni təmsilçisi: Nəsir Həmid oğlu Həsənov**

**Bakı şəhəri “Azərbaycan Bibliya Cəmiyyəti” xristian dini icması**
**Qeydiyyat tarixi: 09 sentyabr 2016-cı il**
**Qeydiyyat №-si: 100116B-697**
**Maliyyə ili: 01 yanvar – 31 dekabr**
Hüquqi ünvanı: Bakı şəhəri, Xətai rayonu, S.Vəzirov küçəsi, 6
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
**Qanuni təmsilçisi: Elçin Nazim oğlu Paşayev**

**Zərdab rayonu Salahlı kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 09 sentyabr 2016-cı il**
**Qeydiyyat №-si: 100116D-698**
**Maliyyə ili: 01 yanvar – 31 dekabr**
Hüquqi ünvanı: Zərdab rayonu, Salahlı kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
**Qanuni təmsilçisi: İkram Qurban oğlu Səftərov**

### DƏYİŞİKLİK

**Sabirabad rayonu Cavad kəndi “Şeyx Böyükağa Ağa” məscidi dini icması**
**Qeydiyyat tarixi: 24 may 2011-ci il**
**Qeydiyyat №-si: 100111A1 – 540**
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Aslanov Mirfəttah Mirilyas oğlu, Qasımov Xeybər Sədulla oğlu, Əliyev Əjdər Əliheydar oğlu, Tağıyev Mirbağır Nəsir oğlu, Ələsgərov Nadir İbrahim oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar və Mehtiyev Bəybala Mehti oğlu, Hüseynov Sərhəd Məhəmməd oğlu, Şabanov Ramazan Bəhlul oğlu, Hüseynov Məlik Məhəmməd oğlu, İbrahimov Yəhya Mütəllim oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər. Aslanov Mirfəttah Mirilyas oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış və Məmmədov Fərzad Mahmud oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.
**Dəyişikliklərin qeydiyyat tarixi: 01 sentyabr 2016-cı il**

**Lənkəran şəhəri Kiçik Bazar “Hüseyniyyə” məscidi dini icması**
**Qeydiyyat tarixi: 11 fevral 2010-cu il**
**Qeydiyyat №-si: 100110A1 – 214**
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Lətifov Cabir Abuzər oğlu, Əliyev Həmdulla Salman oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar və Əliyev Nahid Tarverdi oğu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir. Əliyev Həmdulla Salman oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış və Mirişov Eyvaz Eldar oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.
**Dəyişikliklərin qeydiyyat tarixi: 01 sentyabr 2016-cı il**

**Şəki rayonu İncə kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 09 mart 2010-cu il**
**Qeydiyyat №-si: 100110A1 – 247**
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Yusibov Fikrət Şirəli oğlu, Məcidov Yaqub Əbdürrəhim oğlu, Məmmədov Yusif İskəndər oğlu, Musayev Musa İbrahimxəlil oğlu, Əlibəyov İlyas Mahmud oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar vəMəmmədov Şakir Ramazan oğlu, Həmidov Qoşqar Umudvar oğlu, Musayev Araz Musa oğlu, Məmmədov Ələsət Əbülfət oğlu, Sərkərov Araz Ağası oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.
**Dəyişikliklərin qeydiyyat tarixi: 05 sentyabr 2016-cı il**

**Kürdəmir rayonu Qarasaqqal kəndi “Cümə” məscidi dini icması**
**Qeydiyyat tarixi: 23 aprel 2010-cu il**
**Qeydiyyat №-si: 100110A2 – 317**
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Babayev Bəylər Məhəmməd oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.Babayev Bəylər Məhəmməd oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış və Babayev Hürri Mahir oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.
**Dəyişikliklərin qeydiyyat tarixi: 05 sentyabr 2016-cı il**

### LƏĞV OLUNAN DİNİ İCMALAR

**Salyan rayonu Xıdırlı kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 22.07.2010-cu il**
**Qeydiyyat №-si: 100110A3 – 447**
Salyan rayonu Xıdırlı kənd məscidi dini icması təsisçilərinin 11.08.2016-cı il tarixli, 02 nömrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.
**Ləğv olunması: 30 avqust 2016-cı ildə qeydə alınıb.**

**Bakı şəhəri Suraxanı rayonu Yeni Suraxanı qəsəbəsi “Quransevənlər”dini icması**
**Qeydiyyat tarixi: 12.07.2006-cı il**
**Qeydiyyat №-si: 1306B1 – 350**
Bakı şəhəri Suraxanı rayonu Yeni Suraxanı qəsəbəsi “Quransevənlər” dini icması təsisçilərinin 04.08.2016-cı il tarixli, 02 nömrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.
**Ləğv olunması: 30 avqust 2016-cı ildə qeydə alınıb.**

**“Həzrəti Rəhiməxanım” məscid-ziyarətgahı dini icması**
**Qeydiyyat tarixi: 13.10.1993-cü il**
**Qeydiyyat №-si: 26**
“Həzrəti Rəhiməxanım” məscid-ziyarətgahı dini icması təsisçilərinin 12.08.2016-cı il tarixli, 01 nömrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.
**Ləğv olunması: 30 avqust 2016-cı ildə qeydə**

**Qobustan rayonu Sündü kəndinin “Əbu Bəkr” məscidinin dini icması**
**Qeydiyyat tarixi: 26.02.1997-ci il**
**Qeydiyyat №-si: 143**
Qobustan rayonu Sündü kəndinin “Əbu Bəkr” məscidinin dini icması təsisçilərinin 05.07.2016-cı il tarixli, 02 nömrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.
**Ləğv olunması: 29 iyul 2016-cı ildə qeydə alınıb.**

# Cəmiyyət və Din

№ 09 (302) / SENTYABR 2016-cı il


## Dünyanın üçüncü ən böyük məscidi tikilir

Bu ilin sonunadək Əlcəzairdə dünyanın üçüncü ən böyük məscidinin tikintisi başa çatacaq. Paytaxtda yerləşən və artıq inşaat işlərinin 85%-i tamamlanan məscidin tikintisi yekunlaşdıqdan sonra böyüklüyünə görə Afrikada birinci, dünyada isə Məkkə və Mədinə məscidlərindən sonra üçüncü olacaq.

İbadət evi 400 min kvadratmetr ərazidə yerləşəcək. Onun tikintisinə 1,3 milyard ABŞ dolları məbləğində vəsait ayrılıb. Məscid dünyanın ən hündür minarələrinə sahib olacaq - 270 metr. Burada eyni vaxtda 120 min nəfər ibadətlə məşğul ola biləcək. Məscid-kompleksdə kitabxana, muzey və tədqiqat mərkəzi də olacaq.



## Ufoloq Ayda həyat aşkarladığını iddia edir



Finlandiyalı ufoloq Mark Savalha Ayın fotolarından birində dik antena aşkar edib. Onun fikrincə, bu, Yer kürəsinin peykində yüksək inkişaf etmiş yadplanetli sivilizasiyanın mövcudluğunu göstərir.

Ufoloq iddia edir ki, yadplanetlilər Ayda yeraltı minerallar çıxarır. Mütəxəssisin fikrincə, bu məlumat artıq çoxdan NASA-ya məlumdur, lakin amerikanlar informasiyanı cidd-cəhdlə gizlədirlər.

M.Savalha bildirib ki, amerikalıların Aya pilotlu uçuşlardan imtina etməsinə məhz yadplanetlilər səbəb olub.

## Çəkisi 30 tondan artıq olan meteorit tapılıb

Argentina tədqiqatçıları ölkənin Çako əyalətinin cənub-qərbində çəkisi 30,8 ton olan meteorit tapıblar. Alimlərin fikrincə, bu kosmik obyekt indiyədək Yerə düşmüş ən iri meteoritlərdən biri sayıla bilər.

Hazırda ən ağır meteorit 1920-ci ildə Afrikanın cənub-qərbində tapılmış "Qoba" sayılır. Bu göy cisminin çəkisi 60 tondur.



## Qədim Misirdə cırtdan insanlar

ABŞ-ın "Tibbi genetika" jurnalında 2005-ci ildə mütəxəssislərin cırtdan insanlarla bağlı apardığı tədqiqatların nəticələri çap olunub. Araşdırmalara görə, hələ eramızdan əvvəl 4500-cü ildə cırtdan insanlar qədim misirlilərə xidmət ediblər. Bunu heykəllərdə, sərdabələrin divarlarında, qablarda təsvir olunmuş cırtdan insanların şəkilləri sübut edir.



Qeyd edək ki, bəzi cırtdan insanlar mühüm vəzifələr tutduqlarına görə onları fironun sərdabəsində dəfn edirdilər.

## Valideynlərinin yanında olan uşaqlar daha cəsurdurlar

Almaniyalı alimlər uşaqların ətraf mühiti öyrənmələrində valideynlərin rolunu araşdırıblar.

Tədqiqatçılar uşaqların dünyagörüşünün artmasında, ətraf mühiti tanımalarında valideynlərin böyük rolu olduğunu bildiriblər.

Səkkiz aylıq körpələrin cəlb olunduqları tədqiqatlarda onları iki qrupa ayırıblar: valideynləri yanlarında olanlar və olmayanlar. Ataları və anaları yanlarında olan uşaqların daha fəal və cəsur olduqları müşahidə edilib. Bu uşaqlar tədqiqat otaqlarının hər tərəfini öyrənməyə çalışıblar. Onlardan fərqli olaraq digər qrupun uşaqlarında çox passivlik müşahidə edilib.

### Yadigar söz

Bencamin Franklin
*(ABŞ-ın dövlət xadimi)*

**Əgər zaman ən qiymətli şeydirsə, onda vaxtını boş yerə itirmək ən böyük bədxərclikdir.**

## Bakı və Abşeron üzrə namaz vaxtları (oktyabr)

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 3 | 5:18 | 6:38 | 12:29 | 16:35 | 18:34 | 19:35 |
| 4 | 5:19 | 6:39 | 12:29 | 16:34 | 18:33 | 19:33 |
| 5 | 5:20 | 6:40 | 12:29 | 16:32 | 18:32 | 19:32 |
| 6 | 5:21 | 6:41 | 12:29 | 16:31 | 18:30 | 19:30 |
| 7 | 5:22 | 6:42 | 12:28 | 16:30 | 18:28 | 19:28 |
| 8 | 5:23 | 6:43 | 12:28 | 16:28 | 18:27 | 19:27 |
| 9 | 5:25 | 6:44 | 12:28 | 16:27 | 18:25 | 19:25 |
| 10 | 5:26 | 6:45 | 12:27 | 16:25 | 18:23 | 19:24 |
| 11 | 5:27 | 6:47 | 12:27 | 16:24 | 18:22 | 19:22 |
| 12 | 5:28 | 6:48 | 12:27 | 16:23 | 18:20 | 19:21 |
| 13 | 5:29 | 6:49 | 12:27 | 16:21 | 18:19 | 19:19 |
| 14 | 5:30 | 6:50 | 12:26 | 16:20 | 18:17 | 19:18 |
| 15 | 5:31 | 6:51 | 12:26 | 16:18 | 18:16 | 19:16 |
| 16 | 5:32 | 6:52 | 12:26 | 16:17 | 18:14 | 19:15 |
| 17 | 5:33 | 6:53 | 12:26 | 16:16 | 18:13 | 19:13 |
| 18 | 5:34 | 6:54 | 12:26 | 16:14 | 18:11 | 19:12 |
| 19 | 5:35 | 6:55 | 12:25 | 16:13 | 18:10 | 19:10 |
| 20 | 5:36 | 6:56 | 12:25 | 16:12 | 18:08 | 19:09 |
| 21 | 5:37 | 6:57 | 12:25 | 16:10 | 18:07 | 19:08 |
| 22 | 5:38 | 6:58 | 12:25 | 16:09 | 18:06 | 19:06 |
| 23 | 5:39 | 6:59 | 12:25 | 16:08 | 18:04 | 19:05 |
| 24 | 5:40 | 7:01 | 12:25 | 16:06 | 18:03 | 19:04 |
| 25 | 5:41 | 7:02 | 12:24 | 16:05 | 18:02 | 19:03 |
| 26 | 5:42 | 7:03 | 12:24 | 16:04 | 18:00 | 19:01 |
| 27 | 5:43 | 7:04 | 12:24 | 16:03 | 17:59 | 19:00 |
| 28 | 5:44 | 7:05 | 12:24 | 16:01 | 17:58 | 18:59 |
| 29 | 5:45 | 7:06 | 12:24 | 16:00 | 17:56 | 18:58 |
| 30 | 5:46 | 7:07 | 12:24 | 15:59 | 17:55 | 18:57 |
| 31 | 5:47 | 7:08 | 12:24 | 15:58 | 17:54 | 18:55 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə):*** Sumqayıt **+1**, Mərəzə, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5,** Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Fizuli, Horadiz, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Xanlar, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

** Təqvim AMEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

## Gələcəyin ən aktual on peşəsi

"Microsoft" şirkətinin analitiklərinin tərtib etdiyi, təxminən on ildən sonra tələb ediləcək on peşənin siyahısı yayılıb.

Onluğa elm və kosmosla bağlı sahələr daxil edilib. Mütəxəssislərin təqdim etdikləri peşələrin çoxunun hələ mövcud olmadığı bildirilir. Siyahı üzrə hazırda yalnız təbii ehtiyatların bərpası üzrə mütəxəssis mövcuddur. Digərləri isə, məsələn, "bioxaker", "bədən mühəndisi" kimi peşələr hələ mövcud deyil. Şirkət mütəxəssisləri şagirdlərin siyahıya diqqət yetirmələrini məsləhət görüblər. Onların bir çoxunun özlərini gələcəkdə tam bu sahələrdə görmək istəyəcəkləri düşünülür.

Ekspertlərin fikrincə, gələcəkdə kosmik turizm istirahət mərkəzlərini əvəz edəcək ki, bununla "kosmik bələdçi", "astronomiya bilicisi" kimi peşələr tələb edilənlər siyahısına daxil olacaq. Bundan əlavə, "virtual reallıq dizaynerləri"nə, "mədəni tədqiqatlar şərhçiləri"nə, "enerji iqtisadçıları"na da zərurət yaranacaq. Gələcəkdə insanabənzər robotların hüquqlarının qoruyucuları da tələb olunacaq ki, bununla da "robot hüquqşünaslar" məşğul olacaqlar.

Microsoft şirkətinin bütün tədqiqatları "Future" laboratoriyasının alimləri ilə birgə aparılıb.

### 18 oktyabr - Müstəqillik günümüz




Baş redaktor Səyyad ARAN

**Redaksiya şurası:** Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Arxiyepiskop Aleksandr, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV, Vasim MƏMMƏDƏLİYEV, Oqtay ORUCOV *(məsul katib)*, Gennadi ZELMANOVİÇ.



Ünvan: AZ 1001, Bakı şəhəri, Əhməd Cavad küçəsi, 12
Telefon: 492 65 23; 437 31 15
Tel/fax: 497 15 39
492 58 29; 437 31 15
E-mail: redaksiya@scwra.gov.az



**Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:**
Bakı şəhəri üzrə şöbə - (055) 635 98 90
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 05 33
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet
Tiraj: 1200
Sifariş: 568

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894